# DTX-dən növbəti mühüm əməliyyat


# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№19 (3358) 27 May / 2025-ci il   Həftədə 1 dəfə çıxır   Qiymәti: 60 qәpik


ANA XƏBƏR



## Bir ayın əsgəri iynədən şoka düşüb öldü

# Prezident 220 nəfəri əfv etdi

Hüquq müdafiəçisi: "Komissiyaya təqdim etdiyimiz siyahıdan heç kimin adı əfv sərəncamına düşməyib"



6

GÜNÜN NƏBZİ

Aktual



## "Narkotik tcarətinin kökünün kəsilməsi çox çətindir..."

Mirmahmud Mirəlioğlu: "Dövlət məmurları arasında da heroin qəbul edənlər var"

5

Gündəm

## ADP "Şah İsmayıl Xətai ili"nin elan olunmasını təklif etdi

Partiya əsrlər öncə türk dövlətləri arasında olan çəkişmələri yenidən gündəmə gətirməyi yanlış hesab edir

3

Cəmiyyət

## İcra başçısı Rafiq Quliyevdən şəhidlərə hörmətsizlik

Xətai sakinləri başçının şəhidləri "köhnə" və "təzə"yə ayırdığını iddia edir

4

Xəbər

## Hərbi Prokurorluqda dəyişikliklər başladı: Rəis müavini işdən çıxarıldı

2

Söhbət

## "Çox sayda villalar tikən, iri maşınlar alan insanlar mənəvi acdırlar"

Psxoloq: "Gün ərzində uşağın 8 dəfə, böyüyün 4 dəfə qucaqlaşmaq ehtiyacı var"

11

Toplum



## "Vətənpərvərlik uzun müddət ordunu qidalandıra bilməz"

Azad İsazadə: "Gənclərdə döyüşə hazırlığını da inkişaf etdirməliyik"

10

Müsahibə



## "İnsanlara yaxşılıq etdikdə xoşbəxt oluram"

Leyla Çaqelişvili: "Öz insanlarımızın yanında olmaqdan, onları sevməkdən qürur duyuram"

9

Şikayət

## Prezidentin xüsusi nümayəndəsi qanunsuz tikilini sökdürdü, az sonra yenidən tikdilər

Laçın sakini Solmaz Abışova: "Bir tərəfi erməni olan şəxs evimi əlimdən alıb"

Laçın şəhər sakini, hazırda Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli Q massivi, ev 2, mənzil 16 ünvanında yaşayan Abışova Solmaz Yusifəli qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edir...

7

Xəbər

## Kişini diz çökdürən şəhid anası ilə bağlı araşdırma aparılır

Sosial şəbəkələrdə Füzuli rayonunda qadının kişiyə qarşı təhqiredici hərəkətlərini əks etdirən görüntülər yayılıb. Hurriyyet.az xəbər verir ki, videodakı şəxs Vətən müharibəsi şəhidi Vüqar Zamanovun anası Lətifə Zamanovadır. Belə ki, qadın oğlunun xatirə lövhəsinə hörmətsizlik etdiyi deyilən kişiyə qarşı alçaldıcı rəftar göstərib. O həmin kişini diz çökdürərək üzr istətdirib, həmçinin təhqiramiz ifadələrlə ləyaqətini alçaldıb. Qarşı tərəf isə qadına yalvararaq onu bağışlamasını deyib. Sözügedən şəxsin şəhidin lövhəsinə qarşı daha əvvəl hansı əməli törətdiyi açıqlanmayıb...

2

SİZİN ÜÇÜN QƏZET
# Hürriyyət
№19 (3358) 27 May / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymıti: 60 qəpik

# Həyat yoldaşı Markonu şillələdi...

## Prezident yaşadığı qalmaqaldan danışdı: "Zarafatlaşırdıq..."



**Fransa Prezidenti Emmanuel Makron Cənub-Şərqi Asiya turunun ilk dayanacağı olan Vyetnamda səfərrdə olarkən həyat yoldaşı Bricit Makronla qalmaqal yaşayıb.**

Bu barədə xarici KİV-lərdə videogörüntülər yayılıb.

Yayılan görüntülərdə Bricitin həyat yoldaşı Makrona şillə vurduğu anlar əks olunub. Sözügedən kadrlarda Makronun bir anlıq şok yaşadığı və guya heç nə olmayıbmış kimi, kameralara əl salladığı görünür.

"Franceinfo" telekanalına danışan Yelisey Sarayının nümayəndəsi hadisə ilə bağlı açıqlama verib.

"Bu, prezident və həyat yoldaşı arasında səfərdən əvvəl yaşanan kiçik bir zarafatdır. Sosial mediada yayılan görüntülər saxta və ya təhrif olunmuş deyil, lakin burada nə şillə, nə də zorakılıqdan söhbət gedə bilməz. Bu an sadəcə cütlüyün aralarındakı gərginliyi azaltmaq üçün yaşadığı bir stress boşaltma anı idi", -deyə nümayəndə qeyd edib.

Fransa Prezidenti Emmanuel Makron həyat yoldaşı Bricit Makronla yaşadığı məlum qalmaqalla bağlı ilk dəfə danışıb.

Hanoyda keçirdiyi mətbuat konfransında məsələ ilə bağlı danışan Makron bildirib:"Bu həyat yoldaşımla zarafatlaşdığım bir videodur. Bunun jeoplanetaryal fəlakətə çevrilməsinə təəccüblənirəm. İnsanlar videoya bir çox mənasız fikirlər əlavə edirlər. Bəziləri guya ailə içində zorakılıq yaşandığını düşünür. Bu şərhlər artıq absurd səviyyəyə çatıb".

Makron əlavə edib ki, onun üçün əsas məsələ vətəndaşlarla sağlam və doğru məlumat əlaqəsi qurmaqdır: "Bəzi təhlilçilər hətta döyülmüş bir kişinin diplomatiyası ifadəsini də işlədiblər. Bu nöqtəyə gəlinməsi həm faciəvi, həm də gülməlidir".

Xatırladaq ki, 25 may axşamı Vyetnamın paytaxtı Hanoya səfər zamanı Makron cütlüyünün təyyarədən endiyi anlarda çəkilən görüntülərdə Bricit Makronun prezidentin üzünə iki əli ilə toxunaraq onu itələdiyi və Makronun bu jest qarşısında bir anlıq təəccübləndiyi görünür. Ardınca isə Makron gülümsəyərək kameralara əl edir.

Sosial mediada sürətlə yayılan bu video geniş rezonans doğurub.

# Putinin helikopterinə PUA hücumu oldu...

**Rusiya Prezidenti Vladimir Putin 20 may tarixində Kursk şəhərinə səfər edən zaman onun olduğu helikopter Ukrayna mənşəli pilotsuz uçuş aparatlarının hədəfi olub.**




Bu barədə Rusiya hava hücumundan müdafiə birliyinin komandiri Yuri Daşkin "TASS" nəşrinə müsahibəsində bildirib. O, qeyd edib ki, Putinin helikopteri genişmiqyaslı PUA hücumunun mərkəzində olduğunu, lakin bütün Ukrayna PUA- larının məhv edildiyini vurğulayıb. "Hava hücumundan müdafiə sistemlərinin müdaxiləsi ilə prezident helikopterinin təhlükəsizliyi təmin olunub", -deyə Daşkin bildirib.

Qeyd edək ki, Kreml Putinin Kursk səfərini təsdiqləyib. Səfər Rusiyanın bölgəni tam nəzarətə aldığını elan etməsindən qısa müddət sonra baş tutub. "TASS"-ın məlumatına görə, səfər zamanı Putin yerli könüllülər, bələdiyyə rəsmiləri və bölgənin nümayəndə qubernatoru Aleksandr Xinşteynlə görüşüb.

Xatırladaq ki, Putinin döyüş xəttinə yaxın bölgələrə səfəri nadir hallarda baş verir və o, ictimai tədbirlərdə belə fiziki məsafəni qoruması ilə tanınır.

## Əyləncə səhifəsi

# "Putin tamamilə dəli olub"

## Tramp: "O, bunu etsə, bu, Rusiyanın süqutuna gətirib çıxaracaq!"

**"Ukrayna Prezidenti Volodimir Zelenskinin bəyanatları daim ölkəsi üçün problemlərə səbəb olur". Bu fikirləri ABŞ Prezidenti Donald Tramp "Truth Social" hesabında yazıb.**



Tramp bir daha bildirib ki, o prezident olsaydı, bu müharibə heç vaxt başlamazdı: "Prezident Zelenski dedikləri ilə öz ölkəsinə xeyir vermir. Onun dilindən çıxan hər bir söz Ukrayna üçün yeni problemlər yaradır. Bu, mənim xoşuma gəlmir və onun bu cür çıxışları dayandırması daha yaxşı olardı. Əgər mən prezident olsaydım, bu müharibə heç vaxt başlamazdı. Bu, Zelenskinin, Putinin və Baydenin müharibəsidir, Trampın yox. Mən sadəcə olaraq, səriştəsizlik və nifrət nəticəsində alovlanan böyük və çirkin yanğınları söndürməyə çalışıram". ABŞ Prezidenti Rusiyanın Ukraynaya endirdiyi kütləvi raket zərbələrindən də narazılığını ifadə edib: "Mənim Rusiya Prezidenti Vladimir Putinlə həmişə çox yaxşı münasibətlərim olub, amma onunla nəsə baş verib. O, tamamilə dəli olub! Heç bir səbəb olmadan çoxlu insanı öldürür - və mən təkcə əsgərləri nəzərdə tutmuram. Tamamilə əsassız şəkildə Ukraynanın şəhərlərinə raketlər və dronlar atılır. Mən həmişə demişəm ki, o, Ukraynanın yalnız bir hissəsini yox, bütövlükdə istəyir və bəlkə də bu fikrim indi doğru çıxır. Amma əgər o, bunu etsə, bu, Rusiyanın süqutuna gətirib çıxaracaq!".

**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

"Hürriyyət" qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və "Futbol+ servis" mətbəəsində çap edilib.

HR Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.
Qəzet 1991-ci ildən çıxır.



# Bir ayın əsgəri iynədən şoka düşüb öldü

## Fariz İsayevin ölümü ilə bağlı cinayət işi başlandı




Oğuz rayonunun Xaçmaz kəndindən hərbi xidmətə çağırılan əsgər Fariz Sadiq oğlu İsayev dünyasını dəyişib.

Hurriyyet.az-ın əldə etdiyi məlumata görə, 20 yaşlı Fariz hərbi xidmətə bir ay öncə başlayıbmış.

Andiçmə mərasimindən sonra Qubada yerləşən N saylı hərbi hissəyə göndərilən əsgər üç gün sonra - mayın 10-da dünyasını dəyişib.

İddialara əsasən, qızdırması olan əsgərə antibiotik iynəsi vurulub və o, iynənin təsirindən şoka düşərək ölüb.

Qeyd edək ki, əsgərin ölümü ilə bağlı cinayət işi başlanıb. Baş Prokurorluğun Mətbuat xidmətindən verilən məlumata görə, N saylı hərbi hissəsinin hərbi qulluqçusu, əsgər Fariz İsayevin ölüm faktı əsasında Sumqayıt hərbi prokurorluğunun və Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Kriminalistika və İnformasiya Texnologiyaları idarəsinin əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilib, ölümün səbəbinin müəyyən edilməsi məqsədilə ekspertiza təyin olunub, eləcə də digər prosessual hərəkətlər icra edilib.

Faktla bağlı Sumqayıt hərbi prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılaraq ibtidai istintaq aparılır.

Hazırda ibtidai istintaq davam etdirilir, qanunvericiliyin tələblərinə uyğun olaraq bütün tədbirlərin görülməsi, o cümlədən müvafiq qərarın qəbul edilməsi təmin ediləcəkdir.

**RƏŞAD**

# Hərbi Prokurorluqda dəyişikliklər başladı: Rəis müavini işdən çıxarıldı




**Azərbaycanın Hərbi Prokurorluğunda kadr dəyişikliyi olub. Hurriyyet.az xəbər verir ki, bu barədə Baş prokuror Kamran Əliyev əmr imzalayıb.**

Əmrə əsasən, ədliyyə polkovnik-leytenantı Cahid Xudiyev Hərbi Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəis müavini vəzifəsindən azad edilib. Hələlik həmin vəzifəyə yeni təyinat olmayıb.

Qeyd edək ki, Xudiyev Cahid Qara oğlu uzun illər Hərbi Prokurorluqda müxtəlif vəzifələrdə çalışıb.

O, 2023-cü ilin oktyabrında qurumun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəis müavini təyin olunmuşdu.

Xatırladaq ki, 2005-ci ildən Azərbaycanın Hərbi prokuroru olan Xanlar Vəliyev aprelin 8-də təqaüdə göndərilib.

Prezident İlham Əliyevin mayın 13-də imzaladığı sərəncamla, Bəhruz Əhmədov Baş prokurorun müavini-hərbi prokuror təyin edilib.

# DTX-dən növbəti mühüm əməliyyat

## Yekaterinburqda yoxa çıxan İbrahimov Bakıya gətirilib

**Son günlərdə Ermənistan seqmentinə aid media qurumları Rusiya vətəndaşı Zahirəddin İbrahimovun DTX-nin əməliyyat tədbirləri ilə ələ keçirilərək Bakıya aparıldığını yayımlayır.**

Azərbaycandakı etnik azlıqların hüquqlarının müdafiəsi komitəsinin sədri kimi təqdim edilən Zahirəddin İbrahimov Yekaterinburq şəhərində yaşayıb, illər ərzində Ermənistanın paytaxtında təşkil edilən saxta tədbirlərdə Azərbaycan əleyhinə çıxışlar edib.

O, 2005-2020-ci illərdə Ermənistanda keçirilmiş qondarma konfranslarda Azərbaycan Respublikasının əleyhinə saxta ittihamlar səsləndirib qərəzli bəyanatlar verib, Azərbaycanda separatizmi alovlandırmaq məqsədilə Ermənistanın müvafiq strukturlarının tapşırıqlarını yerinə yetirib.

Bir müddət əvvəl məsələ ilə bağlı mətbuata açıqlama vermiş vəkil Səyyarə Əliyeva müvəkkili olduğu Z.İbrahimovun həqiqətən DTX-nin istintaq təcridxanasına yerləşdirildiyini təsdiq edib. Bildirib ki, Z.İbrahimov dindirilərkən Ermənistanla əlaqələrini və digər məsələləri etiraf edib.

Rusiya vətəndaşı olan Zahirəddin İbrahimovun ələ keçirilərək Azərbaycana gətirildiyi xüsusi əməliyyat tədbirlərinin detalları hələ ki ictimaiyyətə açıqlanmayıb.

Lakin onun da Ruben Vardanyan və Arayik Harutyunyan kimilərlə yanaşı DTX-nin istintaq təcridxanasında saxlanıldığı, Azərbaycanın ərazi bütövlüyü əleyhinə yönəlmiş cinayətlərə görə digərləri kimi cavab verəcəyi artıq məlumdur.

"Konstitusiya və Suverenlik İli" elan edilmiş 2025-ci ildə uzun müddət ərzində düşmən dövlətin separatizm təbliğatının əsas aləti olmuş Zahirəddin İbrahimovun ələ keçirilərək ölkəyə gətirilməsi dövlətimizin konstitusiya quruluşu və ərazi suverenliyi əleyhinə iş aparmağa cürət edən hər kəsə aydın bir mesajdır.

Məsələ ilə redaksiyamız DTX-nin Mətbuat xidmətinə sorğu ünvanlayıb. Mövzunu diqqətdə saxlayacağıq.

**RƏŞAD**

# Kişini diz çökdürən şəhid anası ilə bağlı araşdırma aparılır





**Sosial şəbəkələrdə Füzuli rayonunda qadının kişiyə qarşı təhqiredici hərəkətlərini əks etdirən görüntülər yayılıb. Hurriyyet.az xəbər verir ki, videodakı şəxs Vətən müharibəsi şəhidi Vüqar Zamanovun anası Lətifə Zamanovadır.**

Belə ki, qadın oğlunun xatirə lövhəsinə hörmətsizlik etdiyi deyilən kişiyə qarşı alçaldıcı rəftar göstərib. O həmin kişini diz çökdürərək üzr istətdirib, həmçinin təhqiramiz ifadələrlə ləyaqətini alçaldıb. Qarşı tərəf isə qadına yalvararaq onu bağışlamasını deyib. Sözügedən şəxsin şəhidin lövhəsinə qarşı daha əvvəl hansı əməli törətdiyi açıqlanmayıb. DİN-in Mətbuat xidmətinin regional qrupundan bildirilib ki, hadisə barədə məlumatlıdırlar: "Tərəflər arasında olan mübahisə Füzuli Rayon Polis Şöbəsində araşdırılır. Mübahisə tərəflərinin əməllərinə hüquqi qiymət verilməsi üçün toplanmış materiallar məhkəməyə göndəriləcək".

Qeyd edək ki, 1995-ci il təvəllüdlü Vüqar Zamanov 5 noyabr 2020-ci ildə Daşaltı uğrundakı döyüşdə şəhid olub, ölümündən sonra müxtəlif medallarla təltif edilib.

# Dövlət Sosial Müdafiə Fonduna icraçı direktor təyin edildi

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunda yeni təyinat olub.**

Hurriyyet.az xəbər verir ki, Məmmədov Mail Ağasən oğlu 2025-ci ilin may ayında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun icraçı direktoru vəzifəsinə təyin olunub.

O, 2020-ci ildən etibarən Fondun Sosial Ödənişlərin Təyinatı üzrə Mərkəzi Filialının direktoru vəzifəsində çalışıb.

2005-2012-ci illərdə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Qaradağ rayon Gəlirlər sektorunda məsləhətçi vəzifəsində çalışıb. 2012-2018-ci illərdə Fondun Nərimanov rayon Gəlirlər sektorunda məsləhətçi vəzifəsində fəaliyyətini davam etdirib.

2018-2019-cu illərdə Fondun Hərbi Qulluqçular və Xüsusi Rütbəli Şəxslərlə İş İdarəsinin Pensiya təyinatı sektorunda sektor müdiri vəzifəsində çalışıb.

2019-2020-ci illərdə Fondun Xüsusi Şərtlərlə Təyinat üzrə Mərkəzi Filialında rəis müavini vəzifəsində əmək fəaliyyətini davam etdirib.

Məmmədov Mail 2001-2005-ci illərdə Azərbaycan Dövlət İqtisad Universitetində Maliyyə-kredit ixtisası üzrə bakalavr dərəcəsi alıb.



**ADP** İdarə Heyətinin ölkə və beynəlxalaq aləmdə baş verən ictimai-siyasi proseslərə dair növbəti toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları Rusiyanın xarici işlər naziri S.Lavrovun keçən həftə Ermənistana səfəri zamanı, adı çəkilən ölkənin media mənsubları qarşısında, Azərbaycanın işğal olunmuş ərazilərinin rus silahı ilə əldə edilməsi barədə səsləndirdiyi bəyanata münasibət bildirib.

# ADP "Şah İsmayıl Xətai ili"nin elan olunmasını təklif edib

## Partiya əsrlər öncə türk dövlətləri arasında olan çəkişmələri yenidən gündəmə gətirməyin tərəfdarı olmadığını bildirib




### Demokratlar dünya dövlətlərini Putin Rusiyasının imperialist iddialarının gerçəkləşməsi istiqamətində atdığı addımların qarşısını almaq üçün vahid cəbhədən çıxış etməyə çağırıb

Partiya yetkililəri rus dövlət rəsmisinin bu çıxışını Rusiyanın etimadını itirmiş Paşinyan hakimiyyətinin yenidən öz dövlətinin təsir dairəsinə salmaq məqsədi daşıdığını qeyd etməklə, ərazilərimizin məhz rus silahının dağıdıcı gücü ilə işğal edilməsinin açıq etirafı kimi dəyərləndirib. İdarə Heyəti işğalçılığın bu cür açıq etirafının Ruiyanın baş diplomatı tərəfindən dilə gətirilməsinin nə beynəlxalq hüquq qaydalarına, nə də Rusiya ilə Azərbaycan arasında qarşılıqlı müttəfiqlik fəaliyyəti haqqında əldə edilmiş razılaşmalara uyğun gəlmədiyini diqqətə çatdırıb və torpaqlarımızın 30 il işğalda qalması faktında bu ölkənin siyasi məsuliyyət daşıdığını, xalqımıza dəyən maddi və mənəvi ziyanların kompensasiya edilməsində Ermənistanla yanaşı Rusiyanın da payının olduğunu bəyan edib.

İdarə Heyəti Türk Dövlətlər Təşkilatının Budapeştdə keçirilən qeyri-rəsmi görüşünün nəticələrinə münasibət bidirib. Bu görüşün təkcə türk dövlətləri üçün deyil, onların da qatıldığı böyük bir coğrafi məkanı əhatə edən dövlətlər üçün də faydalı olacağına əminliyini ifadə edib. Partiya yetkililəri bu sammitdə qəbul edilən qərarların Qərbi Avropadan tutmuş Şərqi və Cənubi Asiyaya qədər bütün dövlətlərin maneəsiz olaraq iqtisadi, ticari əlaqələrinin qurulmasında, transport, kommunikasiya, logistika işlərinin sürətlənməsində, Orta Dəhliz və Transxəzər marşurutları boyunca müasir infrastrukturların inkişafı vasitəsi ilə regioanal inteqrasiyanın genişlənməsində önəmli əhəmiyyət kəsb etdiyini diqqətə çatdırıb.

Ölkəmizin bu platformada xüsusi çəkisinin olmasına diqqət çəkən partiya rəsmiləri dövlət başçısının sammit zamanı Türk Dövlətlər Təşkilatının beynəlxalq platformaya çevrilməsi, bu birliyin istismara, ideoloji ekspansiyalara, irqi ayrı-seçkiliyə söykənən digər beynəxalq birliklərdən fərqli olaraq yalnız dinc xarakter daşımasına, xətt boyunca yerləşən ölkələrin iqtisadi, ticari dirçəlişinə, Qərbdən Asiyaya elmi texnoloji nailiyyətlərin, Avrasiya məkanından maddi resursların Qərbə axınının maneəsiz daşınmasına xidmət edəcəyi barədə səsləndirdiyi fikirləri təqdir edib və bu görüşün bu il Azərbaycanda keçiriləcək rəsmi sammiti üçün gözəl vəsilə olacağını bildirib.

İdarə Heyəti Ukrayna xarici işlər nazirinin Azərbaycana səfərinin yekunları ətrafında müzakirələr aparıb və ölkələrimiz arasında uzun illərdir davam edən dostluq əlaqələrinin yeni mərhələyə daxil olması baxımından bu görüşün əhəmiyyətini qeyd edib. Görüş zamanı Azərbaycan tərəfindən Ukraynanın suverenliyi və ərazi bütövlüyünün hər zaman olduğu kimi tanınması barədə verilən rəsmi bəyanatların, Rusiya tərəfindən hərbi təcavüzə, işğala məruz qalan Ukrayna üçün ən böyük dəstək olduğu bildirilib.

İdarə Heyəti son vaxtlar rus dövlət rəsmilərinin SSRİ-nin bərpa edilməsi ilə bağlı səsləndirdiyi bəyanatları qətiyyətlə pisləyib və bu cür bəyanatların yeni dünya nizamına uyğun olmadığını, vaxtı ilə zor əsasında birləşdirilən ölkələrin sonradan beynəlxalq razılaşmalarla ayrılaraq müstəqillik əldə etməsi və BMT tərəfindən onların müstəqilliyinin tanınmasından sonra yenidən zorən SSRİ halında birləşdirilməsi cəhdinin işğal və ilhaq mahiyyəti daşıdığını bildirib və dünya dövlətlərini Putin Rusiyasının imperialist iddialarının gerçəkləşməsi istiqamətində atdığı addımların qarşısını almaq üçün vahid cəbhədən çıxış etməyə çağırıb.

İdarə Heyəti son vaxtlar türk dövlət qurucularının ayrı-ayrı tarixi şəxsiyyətlərinin, xüsusi ilə Azərbaycan Səfəvi dövlətinin başında duran, türk dilini saray dili və ardınca böyük bir xalqın danışdığı rəsmi dil elan edən, türk dilində gözəl ədəbiyyat nümunələri ortaya qoyan, şücaət və qəhrəmanlığı ilə türk xaqanlarına layiq yer tutan Şah İsmayıl Xətaiyə qarşı başladılan qarayaxmalardan, onun və digər tarixi şəxsiyyətlərimizin inkarına durmaq faktından narahatçılığını ifadə edib və bu cür təftişlərin türk dünyasının parçalanmasında maraqlı olan xarici qüvvələrin əlinə işləməsini diqqətə çatdırıb.

Partiya rəsmiləri türk dünyasının genişləndiyi, Turana gedən yolun aydınlaşdığı, Türk Dövlətlər Təşkilatının beynəlxalq platformaya çevrildiyi bir zamanda əsrlər öncə türk dövlətləri arasında olan çəkişmələri yenidən gündəmə gətirməyin tərəfdarı olmadığını bildirib və hakimiyyəti türk dünyası qarşısında göstərdiyi xidmətlərə, türk dilini dövlət səviyyəsinə qaldırdığına, türk imperiyalarından birinin damğasını vurduğuna görə bu ili Azərbaycanda "Şah İsmayıl Xətai ili" elan edilməsi üçün müvafiq qərar qəbul etməyə çağırıb.

İdarə Heyəti ölkə başçısı İlham Əliyevin 200 nəfər məhbusun azadlığa buraxılması ilə bağlı imzaladığı əfv fərmanını da müzakirə edib. Müzakirələr zamanı bu addımın humanist bir hadisə olduğuna diqqət çəkən müzakirə iştirakçıları, əfv olunanlar sırasında siyasi məhbusların adlarının olmamasından da təəssüf hissi keçirdiklərini qeyd ediblər.

**Hazırladı: KƏNAN**

# Bu ölkədə də "Rus Evi"nin fəaliyyəti dayandırıldı

**Əsasən keçmiş SSRİ respublikaları və Şərqi Avropa ölkələrində Kremlin təsir aləti kimi fəaliyyət göstərən "Rus Evi" Suriyada da var imiş. Lakin Əsəd rejimi devriləndən sonra "Rus Evi" bu ölkədəki "şələküləsini" yığışdırmaq məcvburiyyətində qalıb.**

Bu barədə "Rossotrudniçestvo"nun rəhbəri Yevgeni Primakov TASS-a müsahibəsində bildirib.

Onun sözlərinə görə, qərar Suriyada siyasi rejimin dəyişməsi və qeyri-sabit təhlükəsizlik vəziyyəti ilə bağlıdır: "O, məlum vəziyyətə görə - Suriyada rejimin dəyişməsi səbəbindən dondurulub. Biz vəziyyətin bizə qayıdıb bu işi bərpa etməyə imkan verəcəyini gözləyirik".

Rusiya universitetlərində təhsil almaq üçün Suriyadan tələbələrin cəlb edilməsi də müvəqqəti olaraq dayandırılıb. Onun dediyinə görə, bu, sənədlərin yoxlanılması və namizədlərin müəyyən edilməsindəki çətinliklərlə bağlıdır. Hazırda təhsil kvotalarını artıq Rusiyada təhsil alan və təhsilin növbəti pilləsinə keçən suriyalı tələbələr doldurur. Ölkə xaricindəki suriyalıların müraciətləri də nəzərdən keçirilir.

Xatırladaq ki, "Rus Evi"-ni məlum səbəblərdən bağlayan ölkələrədən biri də Azərbaycandır.





Eldəniz QULİYEV

# "HEÇ KİM" OLMAQ AĞRISI...

**Əslində, biz daima ağzından quş buraxan deputatlarımıza da, yedikcə daha çox acıyan, acıdıqca daha çox iştahaya gələn məmurlarımıza da, eləcə də, yuxarıdan sallanmış iplə hərəkət edən marionet teatrının obrazlarını xatırladan məhkəmə hakimlərimizə də yağlı bir "SAĞ OL!" deməliyik(bərəkallah, əhsən, malades də olar).**

Çünki onlar, mütəmadi olaraq böyük fədakarlıq və əsl dördayaqlı inadkarlığyla hakimiyyətin xalqı barmağına necə doladığını əyani şəkildə nümayiş etdirirlər.

Amma möhtərəm hakimlərə ikiqat minnətdarllq düşə bilər. Niyə? Çünki lazım gələndə onları tərsinə də çevirmək mümkündür. Yəni onları hər zaman başaşağı tutub, ayaqlarından "raqatka" hacası kimi istifadə etmək olur.

Və belə "raqatka"larla, ən azından, göydə ütülü-sığallı deputatlarımızın buraxdığı quşları, yerdə isə, camaatın başında turp əkmək aqranomluğuyla məşğul olan məmurların qanadlı nəfsini vurub xosunbay eləmək olar!..

* * *

Nə bilim... bəlkə elə bu kimi "adamların" ucbatındandır ki, bu gün cəmiyyət sağlam məntiqə sığmayan absurd və mənasız hücumlara qarşı müqavimət göstərmək istəmir. Yorulub, bezib. Artıq onun müqavimət və mübarizə immuniteti zəifləyib, haldan düşüb... Ağlı başında olan, ağı qaradan, yaxşını yamandan seçmək gücündə olanlar isə... susur, görməzdən, eşitməzdən gəlir. Vicdanı ilə üzbəsurət qalanda isə dəli kimi öz-özüylə danışır, öz-özüylə dalaşır, dartışır:

- Ədalətsizliyə, haqsızlığa, əclaflığa qarşı biganə qala bilmirsən?..
- Yox.
- Yalan danışmağı, yaltaqlanmağı, pişiklənməyi, quyruq bulamağı, işverənliyi bacarmırsan?
- Yox.
- Bədxahlıqla, pisliklə, saxtakarlıq, riyakarlıqla da aran yoxdu?..
- Yox.
-Onda...şələ-küləvi hazırla - Kürdəxanı səni gözləyir!.. Əlbəttə, "çerez" "Bandotdel..."

* * *

...Kim bilir, bəlkə elə, vicdanını amputasiya elətdirmiş nadürüst adamlara görədir ki, olan-qalan dəyərlərimizi də salıb itiririk... Qətrə-qətrə, çimdik-çimdik, damcı-damcı... Beləcə, əvvəlcə, simamızı, adamlığımızı, ardınca ləyaqətimizi, abır-həyamızı itiririk... Elə itirə-itirə də baş alıb heyy harasa gedirik...

Lənət şeytana! Dünənəcən burnu qanayan yad bir uşaq görəndə özündən gedib bayılan bizlər, bu gün dəhşətli müharibələrə, münaqişələrə; sivil əhalinin başına yağan bombalara, insan başlarının kəsilməsinə, diri-diri yanan insan cəsədlərinə tamaşa edirik - özü də maraqla, bəzənsə ləzzətlə(?!). İynə ucu boyda günahı olmayan insanlara atılan camura, böhtanlara, şər-şəbədələrə, onların təqib, təhqir, həbs edilməsinə, çeşidli işg?nc?l?r? m?ruz qalmasına biganəlik, laqeydlik göstəririk. Ağzımızı kilidləyir, qulaqlarımızı bərk-bərk tıxayır, gözümüzü yumuruq: "Bizə dəxli yoxdu!" deyirik. "Şükür ki, güllə məndən yan keçdi!.." deyirik. "Nə yaxşı ki, tutulan, əzilən, döyülən, öldürülən mən deyiləm!.." deyirik. "Az aşım-ağrımaz başım!" deyirik.

Haramı, yalanları, saxtakarlıqları, yaltaqlıqları, dəyyusluqları, haqsızlıqları görə-görə susuruq! Susuruq və susa-susa da... öyrəncəli, vərdişkar oluruq!.. Nəticədə, ürəyimiz buz bağlayır, gözümüz şüş?l?şir, özümüz isə keyləşir, həyasızlaşır, mənasızlaşır, sırtıqlaşırıq - yavaş-yavaş, damcı-damcı, qətrə-qətrə, çimdik-çimdik, zərrə-zərrə!.. Bu azmış kimi, "Lənət sənə, kor şeytan!" deyirik və öz elədikləriimizi, yəni öz eyibli-suçlu "şələ-küləmizi" həmin şeytanın belinə yükləyirik.

Doğrudan da, hamımızın vəziyyəti, necə deyərlər, "uruscadı"... bəlkə də elə ingiliscədi!.. Nə işıq gələn, nə də it hürən tərəfi seçib ayırd eləyə bilmirik ki, bilmirik. Elə bil azmışıq, yol-yolağanı, səmti itirmişik... Lap nağıllarda olduğu kimi: sağa getsən - öləcəksən, sola getsən - sağ qalmayacaqsan, qabağa getsən - ölməyinə ölməyəcəksən, amma sağ da qalmayacaqsan! (Bircə qalır arxa tərəf... ora da tərs kimi, həmişə "zanit" olur).

...Və günlərin bir günü ayılıb da güzgüyə baxacaq və görəcəyik ki, güzgüdən bizə baxan... HEÇ KİMDİR!

İlahi, bizləri HEÇ KİM olmaq zülmünə məhkum eləyənlərdən qoru!

# İcra başçısı Rafiq Quliyevdən şəhidlərə hörmətsizlik

## Xətai sakinləri başçının şəhidləri "köhnə" və "təzə"yə ayırdığını iddia edir

**Xətai rayonunun bir qrup sakini tərəfindən Hurriyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçilər qeyd edirlər ki, Xətai Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Quliyev Birinci Qarabağ Müharibəsi şəhidlərinə qarşı hörmətsizlik edir:**



"Biz, sakinlər İcra Hakimiyyətinin bu hərəkətindən utanırıq. Rafiq Quliyev Birinci Qarabağ Müharibəsinin şəhidlərinə qarşı hörmətsizlik edir.

Xətai rayonu ərazisində yerləşən 9 şəhidin şəkli olan abidə uçub-dağılıb. Bununla bağlı dəfələrlə R.Quliyevə müraciət etsək də, şikayətimizə baxılmır.

Birinci Qarabağ Müharibəsi iştirakçllarının, şəhidlərinin, veteranlarının bu dövlət və millət üçün azmı əziyyəti olub? Onlardan qan yerinə su axıb? Ayıb deyil, bu qədər ayrı-seçkilik etmək olmaz axı!

Rafiq Quliyev 9 May Qələbə Günü həmin ərazidən keçib. Heydər Əliyev parkında olan konsertdə iştirak edib. Guya, o böyüklükdə şəhid abidəsinin dağılmağını görməyib. Lövhənin vieo-görüntülərini də sizlərlə paylaşacam.

Tutaq ki, Rafiq Quliyev görməyib. Bəs, digər qurumlar? Sadəcə, sərf etmir deyə "görməyiblər". Şəhidlərə qarşı bu cür ikili münasibəti niyə yaradırlar? Niyə xalqı narazı salırlar?

Birinci Qarabağ Müharibəsinin iştirakçıları döyüşlərdə əliyalın vuruşublar. Onlar düşmənin üzərinə silahsız çıxmışdılar. 5 nəfərə 1 avtomat verilmişdi. Torpaqların 80 faizini canlarını qoyaraq almışdılar.

Şəhidlərimizin hamısına Allah rəhmət etsin. Hər biri Azərbaycan oğullarıdır. Onlara "təzə", "köhnə" adı vermək olmaz, ayıbdır.

Birinci Qarabağ Müharibəsinin iştirakçıları Elçibəyin əsgərləri, indiki oğlanlarımız isə İlham Əliyevin əsgərləridir? Belə ayırırlar? Elçibəyin, İlham Əliyevin əsgəri yox, hamısı Azərbaycan əsgərləridir. Biz oğullarımızı Azərbaycan torpaqlarına qurban vermişik.

Hörmətli icra başçısı, xahiş edirik, bu kimi halların təkrar olunmasına imkan verməyin, Azərbaycanı hissələrə bölməyin".

**Jalə FAMİLQIZI**

# Narkotikin təsiri altında ölümlə nəticələnən qəza törətdi, həbs olunmadı...

## Samux sakininin iddiasına DİN-dən rəsmi cavab

**Samux rayonu, Qarayeri qəsəbə sakini Şahhüseynov Qəzənfər Hüseyn oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, avtoqəza nəticəsində qaynı rəhmətə gedib, hadisəni törədən şəxslər hələ də azadlıqdadırlar:**

"Mən, Şahhüseynov Qəzənfər Hüseyn oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Bildirirəm ki, 13.04.2025-ci il tarixində bacım Xalidənin ailəsi gecə saat 12 radələrində şəxsi avtomobilləri ilə evlərinə gedərkən Gəncə şəhərində, dəmiryolu ərazisində qarşıdan gələn "BMV" markalı maşın yüksək sürətli onları vuraraq, səkiyə çırpıb. Nəticədə bacımın yoldaşı Cabbarov Talıb hadisə yerində dünyasını dəyişib. Qalan 3 nəfər isə müəyyən dərəcəli bədən xəsarətləri alıblar.

Qeyd edim ki, onları vuran şəxslər narkotikin təsiri altında olublar. Xəstəxanada onları görəndə dəhşətə gəldik, ayaq üstə dura bilmirdilər. Özləri də yüngül yaralanmışdılar.

Hüquq-mühafizə orqanından bildirdilər ki, həmin şəxslər daha əvvəl də narkotiklə əlaqədar həbs olunublar. Hazırda 2 aya yaxındır ki, bu iki narkotik istifadəçisi cəzasız qalır, onlar hələ də həbs olunmayıb. Deyirlər ki, istintaq gedir. Bəlkə də xaricə qaçıblar, bilmirik.

Bir sözlə, hüquq-mühafizə orqanları bu işə baxmırlar. Sanki narkotik istifadəçilərini qoruyurlar. Bu səbəbdən, səlahiyyətli qurumlardan xahiş edirik ki, bizim şikayətimizə laqeyd yanaşmasınlar".



Məsələ ilə bağlı Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətinin Gəncə regional qrupunun baş inspektoru Eşqin Qasımov Hurriyyet.az-a bildirib ki, 2025-ci il, aprelin 3-də, saat 23:00 radələrində Gəncə şəhərinin Z. Hacıyev küçəsində iki avtomobilin toqquşması ilə nəticələnən ağır yol-nəqliyyat hadisəsi baş vermişdir. Hadisə barədə Gəncə Şəhər Baş Polis İdarəsinə daxil olan məlumat əsasında polis əməkdaşları əraziyə cəlb olunmuş, ilkin araşdırma və digər zəruri tədbirlər həyata keçirilmişdir.

Araşdırmalar zamanı məlum olmuşdur ki, şəhər sakini Şaiq Qəmbərovun idarə etdiyi "BMW" markalı minik avtomobili ilə Samux rayon sakini Münasib Hüseynovun idarə etdiyi "VAZ" markalı avtomobil toqquşmuşdur. Hadisə nəticəsində hər iki sürücü, eləcə də "VAZ" markalı avtomobildə olan sərnişinlər - Z.Hüseynova və G.Cabbarova müxtəlif dərəcəli bədən xəsarətləri almış, digər sərnişin, 52 yaşlı Talıb Cabbarov aldığı xəsarətlərdən hadisə yerində ölmüşdür.

Faktla bağlı Gəncə Şəhər Baş Polis İdarəsinin İstintaq və Təhqiqat İdarəsində Cinayət Məcəlləsinin müvafiq maddələri üzrə cinayət işi başlanmış, sürücü Ş. Qəmbərov saxlanılmış, hadisənin səbəblərinin müəyyənləşdirilməsi üçün məhkəmə-tibbi və avtomobil-texniki ekspertizalar təyin olunmuşdur. Araşdırmaların nəticəsindən asılı olaraq hadisəyə hüquqi qiymət veriləcəkdir.

Eyni zamanda, bəzi sosial şəbəkə və internet resurslarında polis əməkdaşları ilə bağlı həqiqətə uyğun olmayan və ictimai rəyi çaşdırmağa yönəlmiş iddialar yayılmışdır. Məlumat üçün bildirik ki, hadisə baş verdiyi andan etibarən polis əməkdaşları qanunvericiliyin tələblərinə uyğun şəkildə hərəkət etmiş, ərazidə ictimai təhlükəsizliyi təmin etmiş və prosessual hərəkətlərin həyata keçirilməsi üçün zəruri tədbirlər görmüşlər.Zərərçəkmiş şəxslər müxtəlif internet platformalarında çıxış etməsinin səbəbi isə qarşı tərfədən maddi təzminat istəmələri olmuşdur ki, bu barədə intintaq orqanı tərəfindən onlara tələblərinin məhkəmə predmeti olması və bu barədə yalnız məhkəmədə iddia qaldırmaları tövsiyə olunub. Lakin zərərçəkən şəxslər iddialarının dərhal təmin olunmasına nail olmaq məqsədi ilə internet resuslarında həqiqətə uyğun olmayan məlumatlar paylaşmaqla ictimai rəyi çaşdırmağa çalışırlar.

**Jalə FAMİLQIZI**

# “Narkotik tcarətinin kökünün kəsilməsi çox çətindir...”

## Mirmahmud Mirəlioğlu: “Dövlət məmurları arasında da heroin qəbul edənlər var”

Ölkəmizdə narkomaniyanın və narkotik ticarətinin yayılması cəmiyyətin hər bir fərdini narahat edir. Bu problemin qarşısını almaq üçün aidiyyəti qurumlar mübarizə aparsa da, bu məsələdə hər bir vətəndaşımızın da üzərinə yük düşür. Çünki narkotik bəlasından ancaq bu halda xilas olmaq mümkündür. Nəzərə alsaq ki, İkinci Qarabağ Savaşından sonra bu dəfə də ölkəmizə “narkotik müharibəsi” açılıb, deməli, yenə də yalnız vətəndaşlarımızın birliyi ilə bu savaşda qalib gələ bilərik. Bu mübarizədə isə vətəndaşları siyasi qütbələrə, xüsusilə də iqtidar və müxalifətə bölmək olmaz. Elə bu məsələ ətrafında Klassik Xalq Cəbhəsi Partiyasının (KXCP) sədri Mirmahmud Mirəlioğlu ilə həmsöhbət olduq.

***- Mirmahmud bəy, 44 günlük Qarabağ Savaşından sonra, xüsusilə də 2021-ci ildən etibarən Azərbaycanda narkotik ticarətinə qarşı mübarizə dövlət siyasətinin bir qoluna çevrildi. Belə ki, Prezident İlham Əliyevin tapşırığı ilə bütün müvafiq qurumlar yeniyetmə və gənclərimizin məhvinə yönələn bu bəlanın aradan qaldırılması üçün səfərbər oldular. İlk olaraq bilmək istərdik ki, son 4 il ərzində bu istiqamətdə aparılan fəaliyyət Sizi qane edirmi?***

- Ümumiyyətlə, narkotikə qarşı mübarizə dünyanın diqqətində olan və bizim üçün də həyati əhəmiyyətli məsələdir. Necə olmasından asılı olmayaraq, dünya bu məsələ ilə bağlı səfərbər olunubsa və bu, dünyanın probleminə çevrilibsə, təbii ki, hər kəs bilir - burada orqan alveri, narkotik alveri, insan alveri, silah ticarəti və s. dünyanın aparıcı qeyri-leqal ticarətidir - mübarizə bütün hallarda ən yüksək səviyyədə olsa belə, qaneedici deyil. Bu, dünyanın problemidir. Əgər məktəblərimizdə də bu varsa, baxmayaraq ki, quru sərhədlərimiz bağlıdır, bu bizi çox narahat edir, quru sərhədlərin açılması vacibdir, amma gənc nəsil, hətta yeniyetmələr belə bu məsələlərə cəlb olunubsa, polis, ictimai qınaq, valideynlər, bütün cəmiyyət - hamı səfərbər olunubsa, deməli, hələ mübarizə qaneedici deyil.

***- Aparılan araşdırmalara görə, Azərbaycana narkoitk vasitələrin 95 faizi İrandan daxil olur. Bu, xüsusilə 44 günlük Qarabağ Savaşı nəticəsində İranın vaxtilə işğal olunmuş ərazilərimizdən keçən narkotik marşrutunun qarşısının kəsilməsindən sonra baş verdi. Sizcə, İranla münasibətləri necə tənzimləmək lazımdır ki, ölkəmizə qarşı ”narkotik savaşı”-na son qoyulsun?***

- O münasibətlərdən asılı olan məsələ deyil. Narkotik məsələsi təkcə dövlətlərarası münasibətlərdən asılı deyil, ona görə ki, bu, beynəlxalq biznesdir. Bunu da hər kəs bilir. Bu, unudulmamalıdır. Sizin sualınızın birinci cümləsində vurğuladığınız

### “Ölkəmizdə kiçik çaplı narkotik alverçilərinə "məşədi tiryək", daha böyük çaplı narkotik alverçilərinə isə "hacı heroin" deyirlər”

məsələ isə (Azərbaycana narkoitk vasitələrin 95 faizi İrandan daxil olması) tarixən olub. Yəni Çar Rusiyası zamanında da, tarixən də belə olub. Hərçənd, çox adamlar ədəbiyyatçılar və s. bunu düzgün qəbul etmirlər. Siz bilirsiniz, Axundovun məşhur əsərlərindən birinin adı ”Hacı Qara”dır və o əsərdəki ”Qara” adı elə-belə götürülməyib, ”qara” o ”qara”-dır. Bu ”Qara” bugünki ”qara” deyirlər ha, tiryək-filan, az qala onunla sinonimdir. Ona görə, bu təkcə dövlətlərarası məsələlərdən, necə münasibət olacağından asılı deyil. Bayaq xatırlatdım, quru sərhədlər bağlıdır, amma görürsünüz, hər gün bütün xəbərlərdə bu və ya digər informasiya gedir - bizim Güneylə sərhəd rayonlarımızdan filan vətəndaşımız, Güney Azərbaycan vətəndaşı, İran anti-İslam Cümhuriyyətinin filan vətəndaşı saxlanıldı, bu qədər oldu və s. Dövlətlərarası məsələlərdə bu gündəmdə deyil. Amma zahirən gündəmdə deyil. Sənəd olaraq masada gündəmdə deyil. Yalnız danışıqlarda şifahi olaraq xatırlanır ki, məsələ belə qoyulmalıdır, dövlətlərarası beynəlxalq əməkdaşlıq olmalıdır. Amma bunun sahibi var. Narkoticarətin kökünün kəsilməsi çox çətindir. Niyə? Çünki bu beynəlxalq ticarətdir və onun da yiyəsi var. Dünyanın bütün ölkələrində bu davam edir. Bu məsələ təkcə 30 il işğal altında qalan torpaqlardan narkotik bitkilər yetişdirilməsi üçün istifadə olunması ilə bağlı deyil. Bu gün də var.

Çox təəssüflər olsun ki, Quzey Azərbaycanda bu işlə məşğul olan vətəndaşlarımız da var. El arasında hətta onların arasında məşhur olanlara ”məşədi tiryək” deyirdilər. İndi isə onlara ”hacı heroin” deyirlər. Bax, belə şeylər var. Ona görə də bu ictimai qınaqla, tərbiyə və təhsillə, təbliğatla, sizin saytınızla mümkündür, hər bir vətəndaşın mübarizəyə səfərbər olması vacibdir.

***- Çox gözəl qeyd etdiniz, ”məşədi tiryək” və ”hacı heroin” nüanslarını, ilk dəfədir eşidirəm...***

- Bəli, kiçik çaplı narkotik alverçilərinə ”məşədi tiryək”, daha böyük çaplı narkotik alverçilərinə isə ”hacı heroin” deyirlər. El arasında bunlar deyilir.

***- Hesablamalara görə, İrandan daxil olan narkotik vasitələrin cəmi 16 faizi aşkar olunur. Bu isə o deməkdir ki, 84 faiz, yəni tonlarla narkotik sərbəst şəkildə ölkəmizə ayaq açır. Bu məsələdə DSX və DGK-nın məsuliyyət payı nə dərəcədədir?***

- Burada ən böyük məsuliyyət polisindir. Polis istədiyi təqdirdə narkotikə qarşı mübarizədə amansız da ola, onu aradan da qaldıra bilir. O dediyiniz var ha, 16 faiz müsadirə olunan narkotik - təbii ki, bunda adını çəkdiyiniz qurumların da rolu var, amma mən birinci polisi, ictimai asayişi qoruyanları əsas götürürəm. Məsələn, deyilir ki, informasiya verildi və Komissiyanın iştirakı ilə də müsadirə olunub toplanan narkotik məhv edildi. Bunun videosunu da, xüsusi əməliyyat çəkilişini də göstərdilər. Kimdə qarantiya var ki, o narkotikin hamısı məhv edildi? Tonlarla narkotik. Qarant yoxdursa, deməli, məhv edilmir. Həm də əgər sərhədlər bağlıdırsa, narkotik necə gələ bilir?

Bütün dünya ölkələrində belədir, mübarizə aparılır, gətirilir, saxlanılır, məhv edilir - hər kəsdə belədir. Türkiyədə, qonşu dövlətlərdə, Rusiyada, bizdə və s. Niyə buna son vermək, kökünü kəsmək olmur? Deməli, onun kökünü kəsməli olan adamların özləri bu işdə ya maraqlıdırlar, ya da iştirakçıdırlar. Xatırlayıram ki, 15-20 il bundan əvvəl bir xeyriyyə cəmiyyəti var idi - ”Yardımlı” Xeyriyyə Cəmiyyəti. Onlar rayon polisi ilə birlikdə ”Narkomaniyaya yox deyək!” adlı kampaniya başlatmışdı və illərlə bunu davam etdirdi, bütün məktəblərdə məktəblilərə anti-narkomaniya broşürləri paylanıldı. Onda doğrudan da narkomaniya yox idi. Həmin polisin özü indi istefadadır. O, bu işdə maraqlı idi, polis rəisi də maraqlı idi, bu işin içində idi, bunu edə bilirdilər. Amma indi məsələlər biraz fərqlidir. İstəsələr, bunun kökünü kəsmək mümkündür. İstəmək lazımdır.

***- Rəsmi məlumata görə, Azərbaycanda 45 min nəfər yaxın, qeyri-rəsmi isə 330 min narkoman var. Nəzərə alsaq ki, bunların da böyük əksəriyyəti yeniyetmə və gənclərdir, deməli, Azərbaycanda bu sahədə vəziyyətin çox gərgin olduğunu deyə bilərik. Siz problemdən çıxış yolunu necə görürsünüz?***

- Hər bir ailə, hər bir fərd, hər bir vətəndaş, valideyn, hətta ailə üzvləri, qonşular da mübarizədə maraqlı olmalıdırlar. Məsələn, bizim şəhərlərimizin elə yaşayış blokları var ki, iynələrlə doludur. Bununla bağlı çox ciddi həyəcan siqnalı var, iş görülməlidir. Bəs sahə müvəkkili hara baxır? Bəs Mənzil İstismar İdarəsi əməkdaşı, yaxud valideyn hara baxır? Qonşu hara baxır? Siz dedyiniz rəqəmlər özləri belə doğru-dəqiq deyil. Ona görə ki, rəhbərlik, bu işlə məşğul olanlar faiz verirlər. Mən bunu dəqiq bilirəm, işin içindən məlumatlıyam. Yəni, ”bu qədər olsun, bu il, bu ay belə hesabat verək, yaş fərqini bu qədər göstərək, gənclər, yeniyetmələr bu qədər olsun, qoy çox olmasın”. Bu, təxminən nəyə bənzəyir, sanki



plan verirlər; ”Keçən il bu qədər vermişik, qoy bu il bu qədər verək”. Özü də bu rəqəmi verən ağzına gələni deyir: ”Rəis belə dedi, qurtardı, bu qədər yazılmalıdır”. Axı, bu qədər deyil. Həm də nə maraqlıdır - polis sahə müvəkkili, yaxud polis şöbəsi, idarəsi əzbər bilir ki, onun ərazisində neçə narkoman var, hamısını da tanıyır. Bilir ki, istifadəçi kimdir, neçə nəfərdir. Əzbər bilir ki, satıcı neçə nəfərdir. Bunların hamısı nəzarətdədir, istədiyi vaxt onun kökünü kəsə bilər. İstəmirlər, kimsə maraqlı deyilsə, bu, mübahisə doğuran fikirdir. Amma narkotik satışının kökünü kəsmək istəyirsənsə, əzbər bilirsən ki, hansı nöqtədə kim var. Mən əgər sahə müvəkkiliyimsə, polis rəisiyəmsə, əzbər bilirəm ki, bunlar neçə nəfərdir. Bu, o qədərdir ki, bütün kənd rayonlarını əhatə edir. “Patı”nı, tabletləri məktəblərdə və məktəblərin ərazilərində satırlarsa, məktəblilər bu narkoticarətə cəlb olunubsa, deməli, hər kəs bunu bilir. Yəni məktəbin kollektivi də, direktoru da, müəllimlər heyəti də bunu bilir. Onlar buna qarşı ona görə çıxa bilmirlər ki, arxasında konkret yüksək çinli adamlar var və burada təkcə qərarla məsələ həll olunmaz. Əgər dövlət başçısının da bu istiqamətdə bu məsələyə konkret münasibəti varsa, bunları etmək, yerinə yetirmək lazımdır. Bu, kampaniya xarakteri daşımamalıdır. Mövsümi xarakter daşımamalıdır. Daimi olmalıdır ki, kökü kəsilsin və gələcək nəslimiz də xilas olsun.

***- Hazırda türmələrdə cəza çəkən məhbusların 50 faizə yaxını məhz narkotiklə əlaqədar həbs olunanlardır. Heç də təsadüfi deyil ki, indi “narkotik məhbusları” səbəbindən həbsxanalarda ciddi sıxlıq yaranıb. Buna baxmayaraq, həbslərin ardı-arası kəsilmir, demək olar ki, hər gün 34-40 nəfər narkotacir qandallanır. Əgər bütün bunlar insanları çəkindirmirsə, sizcə, narkotiklə əlaqədar cəzaların sərtləşdirlməsinə ehtiyac varmı?***

- Bunu biz deyirik. Sərtləşdirmək missiyasını yerinə yetirən demir ki, sərtləşdirmək lazımdır. Cəmiyyət tələb edir, onlar da bu məsələlərə baxıb gülürlər ki, nə sərtləşdirmək. Əgər həbsxanada narkotik istifadəsi, yaxud satışı ilə məşğul olan həbs olunubsa, onun da narkotiki yoxdursa - konkret faktlara istinad edirəm, çünki bunu bilirəm, bunun məndən də çox bilənlər var, onlar bunları oxuyub gülürlər ki, nə danışır bu, bizim bildiyimizin yüzdə birini bilmir - deyək ki, adam müvəqqəti olaraq həbs olunub, ondan yuxarı cəza verə bilmərik, öz həbs müddətini oturdu, bitirdi, o qayıdır gəlib öz həbsxana yoldaşını narkotikə aparır. Yəni içəridə yatıb həbsdən çıxan içəridə yatan ”dostu”-na narkotik aparır. Bunların hamısını biz, mən, ”obıvatel” - az məlumatı olan vətəndaş kimi bilirəmsə, polis və aidiyyəti qurumlar bizdən yüz dəfə artığını bilirlər. Deməli, bu iş təkcə sərtləşdirmək tələbi ilə yox, sərtləşdirməyi yerinə yetirməklə olmalıdır.

Məsələn, müharibə dövründə işğal zamanında bizim tələbimiz bu idi ki, Azərbaycan işğala məruz qaldığına və müharibə vəziyyətində olduğuna görə, hərbçilərimiz də müharibə dövrünün qanunları və tələblərilə mühakimə olunmalıdırlar. Yəni müharibə cinayətlərinə görə istər düşmən, istər də özümüzünki törətdiyi əmələ görə ən ağır cəzaya məhkum edilməlidir, ölüm cəzası Azərbaycanda bərpa olunmalıdır. Dedilər ki, yox, siz insan haqlarına qarşısınız, biz Avropa Şurasına üzv olduq, ölüm hökmünü ləğv etdik. Bəs onda Nəcməddin Sadıkov necə mühakimə olunacaq? Yəni sərtləşdirmək təkcə sözdə olmalı deyil, əməldə olmalıdır.

***- Narkotiklə əlaqədar həbs olunanların siyahısına baxdıqda, görünən odur ki, onların içərisində bir nəfər də olsun məmur, yaxud vəzifəli şəxs yoxdur. Həqiqətənmi, ölkəmizdə narkotik ticarəti aşağı səviyyədə aparılır?***

- Hətta bu gün də dövlət məmurları var ki, heroin qəbul edirlər. Məhz ona görə narkotikə, narkomaniyaya qarşı mübarizə özünün səmərəli nəticəsini vermir.

**Hazırladı: İ. SABİRQIZI**



# Əfv edilənlərin 16-sı əcnəbidir

**Xəbər verdiyimiz kimi, Prezident İlham Əliyev məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncam imzalayıb.**

**Hurriyyet.az-ın məlumatına görə, əfv edilənlər arasında 16 əcnəbi şəxs də var. Onlardan 5-i İran, 4-ü Rusiya, 2-si Pakistan, 2-si Gürcüstan, 1-i Fransa, 1-i Türkiyə, 1-i Əfqanıstan vətəndaşıdır.**

**Həmin siyahını təqdim edirik:**

1. Abdolvand Ali Papi, 1971-ci ildə anadan olub, İran vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 28 fevral tarixli hökmü ilə məhkum edilib;
2. Agaev Murad, 1985-ci ildə anadan olub, Rusiya vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2022-ci il 29 dekabr tarixli hökmü ilə məhkum edilib;
3. Akmad Kaleem Khan Ahmad, 1967-ci ildə anadan olub, Pakistan vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 31 avqust tarixli hökmü ilə məhkum edilib;
4. Behrouzi Bostanabad Mohammadreza Aboulfazl, 1975-ci ildə anadan olub, İran vətəndaşı, Astara Rayon Məhkəməsinin 2022-ci il 22 dekabr tarixli hökmü ilə məhkum edilib;
5. Clerc Theo Hugo, 1986-cı ildə anadan olub, Fransa vətəndaşı, Bakı şəhəri Nərimanov Rayon Məhkəməsinin 2024-cü il 10 sentyabr tarixli hökmü ilə məhkum edilib;
6. Əhmədov Arif Məmməd-Kərim oğlu, 1971-ci ildə anadan olub, Rusiya vətəndaşı, Sumqayıt Ağır Cinayətlər Məhkəməsinin 2023-cü il 28 dekabr tarixli hökmü ilə məhkum edilib;
7. Əlmudi Əhmədşah Nurullah oğlu, 1995-ci ildə anadan olub, Əfqanıstan vətəndaşı, Yardımlı Rayon Məhkəməsinin 2023-cü il 21 sentyabr tarixli hökmü ilə məhkum edilib;
8. Gholizadeh Behnam Rahim, 1989-cu ildə anadan olub, İran vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 15 may tarixli hökmü ilə məhkum edilib;
9. Hacıyev Muraz Rafail oğlu, 2000-ci ildə anadan olub, Gürcüstan vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2020-ci il 28 oktyabr tarixli hökmü ilə məhkum edilib;
10. Hamdanı Behzad Azım, 1985-ci ildə anadan olub, İran vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 14 noyabr tarixli hökmü ilə məhkum edilib;
11. Xapisov Ali Asadulaeviç, 1994-cü ildə anadan olub, Rusiya vətəndaşı, Astara Rayon Məhkəməsinin 2023-cü il 21 noyabr tarixli hökmü ilə məhkum edilib;
12. Rəcəbi Cavad Rəcəb oğlu, 1992-ci ildə anadan olub, İran vətəndaşı, Yardımlı Rayon Məhkəməsinin 2023-cü il 21 sentyabr tarixli hökmü ilə məhkum edilib;
13. Salıaev Nail, 1990-cı ildə anadan olub, Gürcüstan vətəndaşı, Bakı Ağır Cinayətlər Məhkəməsinin 2021-ci il 16 sentyabr tarixli hökmü ilə məhkum edilib;
14. Şah Nəsrət Şahyar Mat, 1988-ci ildə anadan olub, Pakistan vətəndaşı, Lənkəran Ağır Cinayətlər Məhkəməsinin 2019-cu il 29 avqust tarixli hökmü ilə məhkum edilib;
15. Uğur Erkan, 1983-cü ildə anadan olub, Türkiyə vətəndaşı, Balakən Rayon Məhkəməsinin 2024-cü il 20 fevral tarixli hökmü ilə məhkum edilib;
16. Məmmədov Raqif Neman oğlu, 1966-cı ildə anadan olub, Rusiya vətəndaşı, Şəki Ağır Cinayətlər Məhkəməsinin 2016-cı il 26 dekabr tarixli hökmü ilə məhkum edilib.

**KƏNAN**

# Prezident 220 nəfəri əfv etdi



## Novella Cəfəroğlu: "Komissiyaya təqdim etdiyimiz dustaq siyahısından heç kimin adı bu gün verilən əfv sərəncamına düşməyib"

**Hüquq müdafiəçilərinin, o cümlədən Hüquq Müdafiə Təşkilatları Monitorinq Qrupunun əfv olunması üçün Əfv Məsələləri Komissiyasına təqdim etdiyi dustaq siyahısından heç kimin adı bu gün verilən əfv sərəncamına düşməyib.**

Hurriyyet.az xəbər verir ki, bunu hüquq müdafiəçisi, Hüquq Müdafiə Təşkilatları Monitorinq Qrupunun üzvü Novella Cəfəroğlu verib.

N.Cəfəroğlu deyib ki, buna səbəb Əfv Məsələləri Komissiyasıdır: "Əfv Məsələləri Komissiyasında çox ləyaqətli insanlar var. Amma hesab edirəm ki, artıq bu komissiyanın tərkibi dəyişməlidir. Orada insanların dərdini daha yaxşı bilən, dövlətimizin beynəlxalq nüfuzunu daha dərindən düşünən şəxslər olmalıdır".

Hüquq Müdafiə Təşkilatları Monitorinq Qrupunun bu ilin ötən müddəti ərzində ayrı-ayrı məhbuslarla bağlı üç dəfə ölkə Prezidentinə müraciət etdiyini, həmin müraciətlərdə qaldırılan məsələlərin hamısının həllini tapdığını vurğulayan N.Cəfəroğlu əlavə edib: "Axı biz həmişə Prezidentə müraciət edə bilmərik. Əfv məsələsi ilə komissiya məşğul olur. Ona görə əfv olunmasını zəruri hesab etdiyimiz 37 nəfərlə bağlı dövlət başçısına yox, məhz Əfv Məsələləri Komissiyasına müraciət etmişik. Komissiyaya digər hüquq müdafiə qrupları da siyahılar göndərib. Həmin siyahılarda isə 100-dən çox məhbusun adı olub. Amma komissiya bu siyahılardan heç kimin adını Prezidentə təqdim etməyib. Nəticədə bizim və digər hüquq müdafiə qruplarının təqdim etdiyi siyahıdan heç kimin adı əfvə düşməyib. Dövlət başçısının əfv sərəncamı imzalaması olduqca yaxşı bir hadisədir. Amma Əfv Məsələləri Komissiyasının bu sərəncam ərəfəsindəki fəaliyyəti məni olduqca məyus etdi. Komissiyanın tərkibi dəyişməlidir. Biz hüquq müdafiəçiləri, ziyalılar məhbuslarla bağlı birbaşa Prezidentə üz tutanda məsələ həllini tapır. Başqa instansiyalardan Ombudsmanla işləyəndə də razı qalırıq, çünki Ombudsman öz səlahiyyətləri çərçivəsində olanda bizim xahişlərimizi həll edir, səlahiyyətindən kənar olan xahişlərimizi isə yuxarılara çatdırır. Ancaq Əfv Məsələləri Komissiyası belə etmədi. Müraciətimiz komissiyada ilişib qaldı, həllini tapmadı. İndi mənə çoxsaylı telefon zəngləri daxil olur. Həm azadlığını ən azı səhhətindəki problemlər sarıdan zəruri saydığımız dustaqların taleyindən, həm də hüquq müdafiəçilərinin siyahısından heç kimin əfvə düşməməsinə görə Azərbaycana qarşı sərgilənə biləcək münasibətdən narahatam".

Xatırladaq ki, mayın 26-da sərəncam imzalayan Prezident İlham Əliyev 220 məhkumu əfv edib. Azadlıqdan məhrum edilmiş 175 şəxs cəzadan azad olunub, 25 şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb. Şərti həbs cəzası almış 1 nəfər, azadlıqdan məhrumetmə cəzası təxirə salınmış 2 nəfər, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər əfv olunub. Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 şəxsin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, 4 nəfər islah işləri cəzasından, 1 nəfər cərimə cəzasından qurtulub.

**KƏNAN**

# İcra başçısı ilə birlikdə həbs olunan şöbə müdiri əfv edildi

**Kürdəmir Rayon Təhsil Şöbəsinin sabiq müdiri, həbsdə olan Mətləb Abdullayev əfv edilib.**

Bu barədə Prezident İlham Əliyevin məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında Sərəncamda bildirilib. Sərəncama görə, M.Allahverdiyev cəzasının çəkilməmiş hissəsindən azad olunub.

Xatırladaq ki, M.Allahverdiyev 2021-ci ildə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi əməkdaşlarının Kürdəmir Rayon İcra Hakimiyyətində keçirdiyi əməliyyat zamanı saxlanılıb.

Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə M.Allahverdiyev 8 il 3 ay azadlıqdan məhrum edilib. Ali Məhkəmə onun cəzasını 4 il 4 aya endirib.

Qeyd edək ki, M.Allahverdiyev Kürdəmir Rayon İcra Hakimiyyətinin sabiq başçısı Ceyhun Cəfərovla birlikdə həbs edilmişdi.

Laçın şəhər sakini, hazırda Bakı şəhəri, Suraxanı rayonu, Yeni Günəşli Q massivi, ev 2, mənzil 16 ünvanında yaşayan Abışova Solmaz Yusifəli qızı tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya müraciət edir:



## "5 şəhid verən bir nəslin nümayəndəsi evsiz qalıb, amma bir tərəfi erməni olan şəxs 2 evin sahəsini birdən alıb"

# Prezidentin xüsusi nümayəndəsi qanunsuz tikilini sökdürdü, az sonra yenidən tikdilər

## Laçın sakini Solmaz Abışova: "Bir tərəfi erməni olan şəxs evimi əlimdən alıb"




**"Cənab Prezident!**
**Hörmətli Mehriban xanım!**

Azərbaycan dövləti şəhid ailələrinə, müharibə veteranlarına və qazilərə yüksək diqqət və qayğı göstərir. Prezident İlham Əliyev bütün dövlət qurumları qarşısında bu həssas təbəqəyə aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyən edib. Allah sizlərdən razı olsun, hər bir problemimizə, dərdimizə can yandırmısınız...

Bildirim ki, Laçın şəhərində, Bayraq Meydanının yaxınlığında 2 mərtəbəli, pilləkənləri evin içərisindən olan gözəl bir bağ evimiz olub. Məlum səbəblərdən biz də öz doğma yurdumuzdan qaçqın düşmüşdük. Torpaqlarımız alınanda hər bir azərbaycanlı kimi, bizim evdə də bayram oldu. İllər sonra elimizə-obamıza qayıtmağın həyacanı bizlərə qürür hissini yaşatdı.

Bir müddət sonra qohumlarımız bizdən qabaq elimizi-obamızı ziyarətə getdilər. Oradan zəng vurub bildirdilər ki, sizin eviniz sökülüb, eyni materiallarla başqa bir yerdən ev tikilib.

Bizim evimizin ətrafı qaynanamən və digər qohumların evi ilə əhatə olunmuşdu. Biz ordan çıxmamışdan qabaq evi demək



olar ki, yeni tikmişdik. Qohum-qonşularla da sıx əlaqəmiz olub.

Ermənilər həmin evi sökərək, biraz qabaqdan, eyni materialla söküdükləri kimi ev tikiblər. Qaynanamın və qonşularımın evləri isə tamamilə dağıdılıb, yerində futbol meydançası inşa edilib.

Təsəvvür edin, evimdə olan əşyalar belə hələ durur.

Nəslimizin 5 şəhidi var. Mən heç vaxt bundan istifadə edib nələrsə etməmişəm, etmərəm də. Amma təəssüflə qeyd edirəm ki, bir tərəfi erməni olan şəxs mənim evimə köçərək evimi əlimdən alıb. Görün, bizə təkrar hadisələri necə yaşadırlar. Ermənilərdən az çəkmiş kimi, bir də öz xalqımın nümayəndəsi onun olmayana sahib çıxır.

2023-cü ilin may ayında AzTV kanalından Laçınlı ailə kimi bizə təklif gəldi ki, sizi Laçına aparırıq, orda çəkiliş olacaq. Yoldaşımın ağrıyan vaxtları idi. Bu, mənim üçün əsl fürsət oldu. Yoldaşımı doğma yurduna aparacaqdım, rəhmətə getməmiş oraları bir daha dünya gözü ilə görəcəkdi.

Getdik, çəkiliş oldu. Evimizi, torpağımızı gördük, göz yaşlarımızı saxlaya bilmədik. Bu, biz laçınlılar üçün qürür idi. Yenidən o müqəddəs torpaqlara ayaq basırdıq. Oradakı şəhid məzarlarını da ziyarət etdik.

Hazırda bizim evi şəhid ailəsi olan Mehdiyev Nicat Yasin oğlu mənimsəyib. Özləri ilə danışıb həll etməyə çalışmışıq, lakin onları müdafiə edən yüksək vəzifəli məmurlar olduğundan, əlimizdən heç nə gəlmədi. Bu günə kimi döymədiyimiz qapı qalmayıb.

Mehdiyev Nicat Yasin oğlunun ulu babasının Laçında kinoteatrın yaxınlığında evi olub. İndi isə öz evlərinə yox, bizim evə köçüblər. Hətta onu da qeyd edim ki, dövlət tərəfindən onlara Qobu qəsəbəsində də ev verilib.

> Evi mənimsəmələri bir yana, köç başlayandan sonra evin hasarlarını Çin səddi kimi çəkərək, digər sakinlərin həyətlərinə girişinə mane yaradırlar. Evin arxa tərəfi, yəni bizim köhnə evin yeri və qaynanamgilin həyətinə giriş yolu bağlanmışdır. Bu səd yalnız bizim həyətlərə girişi yox, bizdən başqa 5 qonşunun evinə girişi də məhdudlaşdırmışdır...

Evi mənimsəmələri bir yana, köç başlayandan sonra evin hasarlarını Çin səddi kimi çəkərək, digər sakinlərin həyətlərinə girişinə mane yaradırlar. Evin arxa tərəfi, yəni bizim köhnə evin yeri və qaynanamgilin həyətinə giriş yolu bağlanmışdır. Bu səd yalnız bizim həyətlərə girişi yox, bizdən başqa 5 qonşunun evinə girişi də məhdudlaşdırmışdır.

Şikayətimlə bağlı Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Əhməd oğlu Məmmədovun qəbulunda oldum. Bildirdim ki, Məsim müəllim, ermənilər evimin yerini dəyişərək, mənim materiallarımla biraz yuxarıda həmin evi inşa ediblər. Hazırda isə sənədləri mənim adıma olan evimdə başqaları yaşayır. Bunu da qoydum bir qırağa, indi də böyük bir səd çəkərək, mənim və 5 qonşumun həyətinə girişimizi məhdudlaşdırıblar.

Məsim müəllim dərhal həmin yerə baxış keçirərək, çəkilmiş səddi sökdürdü. Hətta bildirdi ki, vermirlər. Çünki Nicat bəy oraları mənimsəyib. Ən gözəl, ən bahalı yerdir.

Bir müddət keçəndən sonra isə yenidən qonşular dedilər ki, "Çin səddi" yenidən tikilir, video çəkildi, göndərildi bizə. Yenidən Mənsim müəllimə müraciət etdik, bildirdi ki, ola bilməz, icazəsiz ev də sökülməlidir.

Mehdiyev Nicatın özü hazırda Yaşıllaşdırma İdarəsində işləyir. Mehdiyev Nicatın ulu babası Laçında yaşayıb, özü və yaxud da atası yox. O, "Bakı Abadlıq Xidməti" MMC-nin direktoru Binnət Qasımovun sayəsində "at oynadır", heç bir qanuna baş əymir.

Hasarın sökülməsini eşitdiyimizdə həm, öz adımızdan, həm də qonşular adından təşəkkür edib, Bakıya qayıtdıq. Çünki torpaqda ev yoxdur, bizə aid ev mənimsənildiyindən, yaşamağa yerimiz yoxdur. Bu səbəbdən də dövlət tərəfindən həmin yerdə ev tikilənə kimi Bakıya qayıtdıq.

Tam əminliklə onu da deyim ki, Mehdiyev Nicatın babasının ermənilərlə qohumluğu olub. Bunu hələ biz orda yaşayan vaxtdan bilirdik. Çünki onlar erməni dilində danışırdılar. Görusdan olan erməni qohumları var idi. Bir tərəfləri erməni olan insanları hazırda Binnət müəllim müdafiə edir. Müdafiə etməsi bir yana, 5 nəfərin evini əlindən alırlar. Həmin ərazidə ev tikilməsinə icazə belə bir addımı atmazlar, orada tək sizin yox, başqa insanların da evləri olacaq.

Getdik və öz gözümüzlə gördük ki, bəli, bu dəfə daha qalın bir hasar çəkilir. Bizə isə başqasının həyətindən yol vermək istəyirlər. Məhlə sahibi də haqlı olaraq narazıdır. Qanunla sökülən hasar sonradan qanunsuz olaraq tikilib və Binnət müəllim də sökülməməsi üçün əllərindən gələni edir. Həmin evin ətəsinə qala kimi hasarlarla tikiblər. Ora işlədilən daşlarla bir ev tikib başa gətirmək olardı. Bunu video görüntülərdən də görəcəksiniz. Həmin şəxsin özü də dəfələrlə deyir ki, əlinizdən gələni edin, heç nəyə nail ola bilməyəcəksiniz.

"Qaçqınkom"dan da öyrənmişəm, ev erməni tərəfindən tikilən ev kimi təsdiq edilməyib. Erməni tikən evi Binnət müəllimin əli ilə sənədləşdiriblər. Binnət müəllim isə deyir ki, evi sökə bilmərik. Deyirəm bəs necə olur, onun hasarı 5 ailəni evsiz qoyur?! Binnət müəllim isə bu olanlara göz yumur.

Biz son 30 ildə çəkdiyimizi çəkmişik, rəsmi qurumlardan xahiş edirik ki, bundan sonra bizə vətən həsrəti, ev həsrəti çəkdirməsinlər.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin və qurumların mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi

# “Vətənpərvərlik uzun müddət ordunu qidalandıra bilməz”

## Azad İsazadə: “Vətənprvərliklə paralel, gənclərdə döyüşə hazırlığını, müharibə aparmaq hazırlığını da inkişaf etdirməliyik”

**Gənclərimizin milli ruhda yetişməsi dövlətimizin gələcəyi üçün mühüm amildir. Amma, əksər ekspertlər bu fikirdədir ki, bunun üçün valideynlərin özləri də maariflənməlidir. Yəni valideyn hələ məktəb yaşlarına qədər övladında vətənə məhəbbət, millətinə doğmalıq hisslərini aşılamalıdır. Qeyd etdiymiz kimi, sağlam ruhlu gənclərin yetişməsi cəmiyyətin inkişafına müsbət təsir göstərir. Həmçinin, cəmiyyətdə nöqsan varsa, bu, istər-istəməz, gənclərin əxlaqına və onların vətənpərvərlik hisslərinə də böyük təsir edir. Odur ki, vətənə bağlılıq, vətən sevgisi, vətənpərvərlik ruhunun yüksəldilməsi hər bir vətəndaşın mənəvi borcudur. Bəlli olduğu kimi, 44 günlük Vətən Müharibəsində Azərbaycan gənclərinin vətənpərvərliyinin, milli mənlik şüuruna sahib olmasının əyani şahidi olduq. Təsadüfi deyil ki, bəzi hallarda hərbi xidmətdən yayınmağa meyilli olan gənclər belə, könüllü olaraq savaşa qatılmağa, torpaqlarımızın işğaldan azad olunması yolunda ölüb-öldürməyə hazırı idi.**

O da şübhəsizdir ki, ailəsinə dəyər verməyən, valideynləri ilə münasibətləri yaxşı olmayan bir gəncin milli mənlik şüurundan, vətənə məhəbbətindən danışmaq olmaz. Ailədə düzgün tərbiyə edilmiş uşaq gözəl əxlaqa və vicdana sahib olur. Əxlaqlı və vicdanlı gəncin milli mənlik şüuru da yüksək olur.

Məsələni psixoterapevt, hərbi ekspert Azad İsazadə ilə müsahibəmizdə müzakirə etməyə çalışdıq.

***- 44 günlük Vətən Müharibəsində Azərbaycan gənclərinin vətənpərvərlik səviyyəsinin inkişafı, gənclərimizin düşmənə qarşı savaşmağa hər an hazır olduğu kimsəyə sirr deyildi. Sizcə, ölkəmizdə vətənpərvərliyin inkişafı üçün bu prosesin davamı olaraq daha hansı tədbirlər görülməlidir?***

- Əvvəla, biz başa düşməliyik ki, vətənpərvərliyin inkişafı üçün istər dövlət, istər də cəmiyyət arasında iş aparılmalıdır. Amma bu, kortəbii bir prosesdir, sadəcə, ona istiqamət vermək olar. Yəni onu yaradıb, ya da gücləndirmək bəzən çətin olur.

44 günlük müharibədə biz 30 il ərzində uduzmuş ölkənin vətəndaşları kimi, uzun müddət məğlubiyyət hissi yaşamışıq. Hətta bəzi hallarda heç inanmırdıq ki, bizim nəsil Qarabağ məsələsini həll edəcək, torpaqlarımızı alacaq və biz bunun şahidi olacağıq. Yadınızdadırsa, müharibədən öncə, iyul hadisələrində də gənclər küçəyə tökülmüşdü. Bunu hardasa etiraz aksiyası kimi qiymətləndirə bilərik. Onların bu vətənpərvərlik hisslərini yaxşı ki, söndürmədik, onları cəzalandırmadıq.

2 ay sonra - müharibə zamanı həmin gənclər könüllü olaraq orduya qatıldılar. Səfərbərlikdən qaçmayan gənclərin sayı o qədər çox idi kig Hətta onları evə qaytarırdılar ki, gözləyin, lazım olsa çağıracağıq. Deməli, bu proses hardasa cəmiyyətin içində inkişaf edirdi və hansısa səbəb olmalı idi ki, onu üzə versinlər.

Sonrakı proseslər də göstərdi ki, bu oyanma və qələbə hissiyyəti tez sönmədi. Hətta sonrakı döyüşlərdə, 2023-cü ilin sentyabr hadisəsində də Qarabağ tam azad olunanda - söhbət Xankəndi və Xocalıdan gedir - bir günlük döyüşlərdə şəhid verməyimizə baxmayaraq, növbəti qələbəni yaşadıq.

***- Necə düşünürsünüz, uşaqların milli mənlik şüurunun və vətənpərvərlik hisslərinin inkişafına ailədən, yoxsa təhsil ocağından başlamaq lazımdır?***

- Sözsüz ki, ailədən. Cəmiyyətdən, məktəbdən, ümumiyyətlə təhsil ocaqlarından da hardasa asılılıq var. Onlar sözsüz ki, buna təsir göstəməlidirlər. Amma sırf hərbi baxımdan biz başa düşməliyik ki, yalnız vətənpərvərlik üzərində işi qurmaq azdır. Söhbət ondan gedir ki, vətənprvərliklə paralel, bizim gənclərdə döyüşə hazırlığını, müharibə aparmaq hazırlığını da inkişaf etdirməliyik. Çünki vətənpərvərlik uzun müddət ordunu qidalandıra bilməz. Vətənpərvərliklə yanaşı, peşəkarlıq da lazımdır. Söhbət zabitlərdən getmir, zabitlərin peşəkarlığı öz yerində. Söhbət döyüş bacarığı peşəkarlığından gedir. İnsan atəşə öyrəşməyibsə, döyüşü necə aparmağı bacarmırsa, o, sadəcə özünü qurban verəcək, amma heç nə əldə edə bilməyəcək. Deməli, hazırlıq ondan ibarətdir ki, döyüşə gedib, ordan sağ-salamat çıxmaq bacarığı olmalıdır. O zaman itki də, sarsıntı da az olacaq.



> “Vətənpərvərlik bəzən mənfi rol da oynaya bilər. Belə deyək, vətənpərvərlik varsa, bacarıq yoxdursa, insanlar sadəcə şəhid olacaqlar, nəticə əldə olunmayacaq”

Vətənpərvərlik bəzən mənfi rol da oynaya bilər. Belə deyək, vətənpərvərlik varsa, bacarıq yoxdursa, insanlar sadəcə şəhid olacaqlar, nəticə əldə olunmayacaq.

***- Siz qeyd etdiniz ki, vətənprvərliklə paralel, gənclərdə döyüşə hazırlığını, müharibə aparmaq hazırlığını da inkişaf etdirməliyik. Orta və ali məktəblərdə hərbi dəslərin ləğvi gənclərimizin döyüş hazırlığına mənfi təsir göstərirmi?***

- İstər orta məktəbdə, istər ali məktəbdə sovet vaxtında da keçdiyimiz hərbi hazırlıq natamam idi. Hə, nə isə öyrədirdilər, avtomatı yığıb-sökmək və s. Amma konkret hərbi qulluğu öyrənmək hər bir gənc üçün vacibdir. Əsasən də onları öyrədən zabitlərin, ya da müharibə görən insanların məsləhəti və nə isə göstərməsi, nəyi necə etməsini öyrətməsi və s. onların inkişafında çox mühüm rol oynayır. Bu baxımdan, İsrailin təcrübəsini nümunə kimi gətirim. Orada kişi-qadın fərq etmədən, bütün gənclər hərbi qulluğu keçir, müharibədən asılı olmayaraq. İl ərzində bəzən 4-6 ay “rezervistlər” kimi hərbi hazırlıq keçirlər. O cümlədən, hərbi qulluq edirlər. Avtomatla, texnika ilə işləyir, sabah lazım olanda da hər biri nəyi necə etməli olduğunu bilir.

Hazırda Azərbaycan üçün böyük təhlükə yoxdur. Amma nəyin hesabına böyük təhlükə yoxdur? Çünki bizim hal-hazırda döyüş qabiliyyəti yüksək gücə malik ordumuz var. Amma aydındır ki, 10 ildən sonra indi qulluq edən insanlar yaşına görə yavaş-yavaş ordudan uzaqlaşacaq və onların əvəzinə yeni hərbçilərimizi, yeni əsgərlərimizi yetişdirməliyik.

***- Bu gün çox təəssüflə qeyd etməliyik ki, ölkədə vətənpərvərlik ruhunun inkişafına ən çox təkan verməli olan televiziyalar, əksinə, yeni-yetmə və gənclərin əxlaqını pozan, onları zərərli vərdişlərə yönləndirən verilişlərə üstünlük verirlər. Belə bir vəziyyətdə gənc nəslin milli mənlik şüurunu inkişaf etdirmək mümkündürmü?***

- Televiziyaların vaxtilə böyük təsiri var idi, amma bu təsir yəqin ki, 20-ci əsrdə qaldı. Bu gün televiziya kanallarına baxan azdır, əsasən də gənclər arasında. Gənclər internetdədir, YouTube-dadır. Kinoya baxmaq istəyirsə, televizoru yox, telefonunu yandırır və istər YouTube-da, istər Netflix-də istədiyi filmə, ya da verilişə baxa bilər. Ona görə, televiziya bu gün vətənpərvərlik baxımından heç bir rol oynamır. Çünki praktiki vətənpərvərliklə bağlı heç bir fərdi layihə, veriliş də yoxdur, amma baxan da yoxdur. Baxan var, amma azdır və bizim 21-ci əsrin gənclərinin oturub uzun-uzun verilişlərə baxmağa səbrləri yoxdur və ona tələbat da yoxdur. Onlar daha çox TikTok-da, ya da YouTube-da qısa şortlara baxır və burada onlara kifayət edən məlumatı əldə edə bilirlər.

Deməli, biz təbliğatı da düzgün başa düşməliyik. Daha vacib olardı ki, o təbliğatı müasir kommunikasiyalarda aparaq.

**“Hürriyyət”**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# "İnsanlara yaxşılıq etmək məni xoşbəxt edir"

## Leyla Çaqelişvili: "Öz insanlarımızın yanında olmaqdan, kömək etməkdən, onları sevməkdən qürur duyuram"

Müsahibimiz siyasətçi, dövlət xadimi deyil. Amma təmsil etdiyi cəmiyyətdə əksər siyasətçilərdən, dövlət xadimlərindən daha çox hörmət sahibidir. Onu tanıyan hər kəs barəsində yüksək fikrə malikdir. Şübhəsiz, məhz bu keyfiyyətləri bizi onunla söhbət etməyə, daha yaxından tanımağa və tanıtdırmağa vadar etdi.

Söhbət Leyla Çaqelişvilidən, obrazlı şəkildə ifadə etsək, "Borçalının Leylası"ndan gedir. O Leyladan ki, əmək fəaliyyətini Borçalıdakı soydaşlarımıza köməyə, yardıma həsr edib və hazırda da bu xeyirxah missiyasını davam etdirir.

"İnsanlara kömək edəndə elə hesab edirəm ki, Allahın və millətimin qarşısında öz borcumu verirəm"



***- Leyla xanım, sizi oxucularımızın daha yaxından tanıması üçün ilk olaraq özünüz haqda bir qədər geniş məlumat vermənizi xahiş edərdik...***

- Mən 1957-ci ilin 2 fevralında Bolnisidə anadan olmuşam. Elə burada da orta məktəbə getmişəm. Sonra Bakı şəhərində Bakı Dövlət Universitetində biologiya üzrə ali təhsil almışam. Oranı bitirdikdən sonra uzun müddət müəllimə olaraq fəaliyyət göstərmişəm. Bundan sonra Bolnisidə Tibb Texnikumunda, ardınca da buradakı notariusda tərcüməçi olaraq çalışmışam və bu günədək də çalışıram.

Gürcüstanda Tiflis Universitetinin Hüquq fakültəsi üzrə Suxumu filialında təhsil almışam. 3 oğlum, 5 nəvəm var. Həyat yoldaşım gürcü olub və uzun müddət öncə vəfat edib. Övladlarımı öz qüvvəmlə böyüdüb, boya-başa çatdırmışam. Övladlarım da ali təhsillidir. Çox xoşbəxtəm ki, Gürcüstanda yaşayıram, amma azərbaycanlıyam. Xoşbəxtəm ki, həmişə öz millətimizin yanındayam. Bununla fəxr edirəm.

***- Qeyd etdiniz ki, gürcü millətinin nümayəndəsi ilə ailə qurmusunuz. Səhv etmirəmsə, Borçalıda gürcülərlə azərbaycanlılar arasında evliliklərin sayı o qədər də çox deyil. Mümkünsə, bu barədə danışın, necə oldu gürcü oğlanı sevdiniz və onunla ailə qurdunuz?***

- Bir-birimizi sevmişdik. Çox gözəl yoldaşım var idi. Onun da hər zaman azərbaycanlılarla yaxşı əlaqəsi var idi. Mənim millətimə hörmət edirdi. Həmişə fəxr edirdi ki, bizim ailəmiz yarı azərbaycanlı, yarı gürcüdür. Nə mən tərəfdən, nə onun tərəfindən hiss etməmişik ki, biz ayrı-ayrı millətik. Biz ancaq bir-birimizi sevdiyimizə görə bunların heç birini görməmişik, fikir verməmişik. Çox gözəl ailə qurmuşduq. Övladlarım dilimizi təmiz bilirlər. Mənim həyat yoldaşım da dilimizi öyrənmişdi, azərbaycancanı çox yaxşı bilirdi. Həmişə Bakıya gedəndə Bakının əziz qonağı olub.

***- Dediniz ki, övladlarınız da dilimizi çox gözəl bilirlər. Yəqin ki, bu sizin təsirinizdir, siz onları belə yetişdirmisiniz...***

- Bəli, onlar bilirdilər ki, anaları azərbaycanlıdır, analarına çox hörmət edirdilər. Mənim oğullarım Faxralı kəndində çalışıblar. Biz ailədə bir neçə dildə danışırdıq. Özüm də bir neçə dil bilirəm. Rus dilini də yaxşı bilirlər. Soydaşlarımızla hər zaman ünsiyyət olduğu üçün, onlar dilimizə incəliklərinə qədər bələddirlər. Bolnisi çoxmillətli rayon olduğu üçün burada yaşayarkən bir neçə dili öyrənirsən. Buna görə, övladlarım da ana dillərini də, ata dillərini də gözəl bilirlər.

"Həyat yoldaşım həmişə fəxr edirdi ki, bizim ailəmiz yarı azərbaycanlı, yarı gürcüdür"

***- Bəs övladlarınız özlərini hansı millətin nümayəndəsi hesab edirlər?***

- Onlar özlərini gürcü hesab edirlər, amma bilirlər ki, anaları azərbaycanlıdır, qohumları azərbaycanlıdır. Və onlar analarının azərbaycanlı olduğunu gizlətmirlər, əksinə, bununla fəxr edirlər.

***- Gəlinləriniz də gürcüdür?***

- Bəli, onlar mənə öz qızlarım kimidir. O qədər doğmadırlar, heç hiss etmirəm ki, onlar gəlindirlər. Münasibətimiz ana-qız münasibətidir.

***- Onlar da bizim dili bilirlərmi?***

-Başa düşürlər. Rusiyadan, Azərbaycandan qohumlarımız gələndə onlara çox hörmət edirlər, çox şad olurlar.

***- Leyla xanım, söhbətimizə sizin şəxsi həyatınızdan danışaraq başladıq, amma müsahibəmiz daha çox işinizlə, fəaliyyətinizlə bağlıdır. Hansı ki, xüsusilə də Bolnisi rayonunda yaşayan soydaşlarımız sizin barənizdə hər zaman yüksək fikirdə olublar və bu gün də belədir. Sirr deyil ki, soydaşlarımız arasında gürcü dilini bilənlərin, xüsusilə də yazıb-oxuyanların sayı çox deyil. Məhz bu insanlar sizin dəstəyinizdən hər zaman ürəkdolusu danışırlar. İlk olaraq bir qədər işiniz haqda danışaq...***

- İndiki cavanlar gürcü dilini öyrənirlər. Gürcüstanda yaşayırlar, gürcü dilini öyrənirlər. Kəndlərdən gələn yaşlı adamlar isə gürcü dilini, qanunları o qədər də başa düşmürlər. Yaşlı soydaşlarımızla müqayisədə cavanlarımız gürcü dilini öyrənirlər, yazmağı da, oxumağı da yaxşı bilirlər.

Mən tərcüməçilikdən başqa, qanunları da bildiyim üçün onlara yol göstərirəm, onları başa salıram. Mənə Azərbaycandan, Rusiyadan çox zənglər olur. Bilmirəm telefon nömrəmi necə tapırlar, yəqin bilənlərdən alırlar. Məndən soruşurlar ki, bu işi necə etmək lazımdır?.. Mən onlara məsləhət verəndə, insanlara kömək edəndə elə hesab edirəm ki, Allahın və millətimin qarşısında öz borcumu verirəm. Bununla fəxr edirəm.

***- Səhv etmirəmsə, siz uzun illərdir ki, bu sahədə çalışırsınız. Maraqlıdır, sizə öz işinizi, peşənizi sevdirən nədir?***

- Mən insanlara kömək etməyi çox sevirəm, bundan çox xoşbəxt oluram. Öz insanlarımızın yanında olmaqdan, kömək etməkdən, onları sevməkdən qürur duyuram. Bunu ona görə etmirəm ki, nəsə maddi istəyim var. Mən bunları ona görə edirəm ki, onlar mənim öz dogma millətimdir. Gürcüstan mənim vətənimdir, amma milliyyətim azərbaycanlıdır. Bu, mənim canım-ciyərim, öz millətimdir. Mən fəxr edirəm ki, öz millətimin yanında olmuşam. Nə qədər ki varam, olacağam da. Bu, mənim borcumdur. İndiyə qədər necə olmuşamsa, bundan sonra da elə olacağam.

***- Nə vaxtsa peşənizi dəyişmək fikrinə düşmüsünüz?***

- Yox, qətiyyən. Sadəcə, çox yoruluram. Ancaq işimi bitirəndən sonra bu yorğunluq canımdan tez çıxır. Ona görə ki, yaxşılıq etmək, xalqa, insanlara kömək etmək, onlara məsləhət vermək, ünsiyyət saxlamaq məni xoşbəxt edir.

Mən Bolnisi şəhərində yaşayıram, burada azərbaycanlılar o qədər də çox deyil. Mən işə ona görə sevinə-sevinə gedirəm ki, yenə öz millətimlə görüşəcəyəm, onlara yenə kömək edəcəyəm. Mən də onlardan çoxlu məsləhət alıram. Mənə nə lazımdırsa, onlar da məsləhət verirlər. Mən işə tək işləmək üçün getmirəm. Həm də ona görə gedirəm ki, öz millətimlə əlaqə saxlayacağam, görüşəcəm, qohumlarımı görəcəm. O qədər qohumlarım var idi, onları heç tanımırdım, tanış oldum.

Elə Bakının özündən də Gürcüstandan gedən azərbaycanlılar teztez zəng edirlər. Soruşurlar ki, bu işi necə görmək olar?.. Qanunlar teztez dəyişir, onlar da mənimlə əlaqə saxlayırlar. Sevinirəm ki, məndən nəsə soruşacaqlar, mənim üçün dua edəcəklər. Onların dua etməsi məni çox sevindirir. Onları sevinə-sevinə yola salmaq da məni sevindirir.

***- Uzun illərdir bu sahədəsiniz, Borçalıda yaşayan soydaşlarımızın dövlət dilini mənimsəmək səviyyəsini sizdən yaxşı heç kim bilməz. Bu sahədə 10 il bundan qabaqla indiki vəziyyət arasında nə kimi fərq görürsünüz? Soydaşlarımız gürcü dilini öyrənməyə meyl edirlərmi?***

- Gürcülər bizim millətə hörmət edirlər. Çünki bizim millət səmimidir, ürəyiaçıqdır, xoşməramlıdır. Hiyləgər, qəlbiqara deyillər. Üzdə bir cür, arxada başqa cür deyillər. Bir zamanlar millətlərarası xoşagəlməz hadisələr oldu. Amma indi bu kimi hallar yoxdur. İndi soydaşlarımız Bolnisinin özünə gəlirlər. Hamı ilə yaxşı münasibət qururlar. Kəndlərdə yolları düzəldirlər, işıqları, qazları var. Vaxtlı-vaxtında pensiya alırlar. Kəndlərdə kimin maddi imkanı zəifdirsə, onlara yardımar edirlər. Və bu vaxt baxmırlar ki, sən gürcüsən, azərbaycanlısan, russan, hansı millətin nümayəndəsisən. O dönəm keçdi. Bir zamanlar millətlər arasında fikirayrılığı var idi. Amma indi belə düşüncə var ki, milli mənsubiyyətin fərqi yoxdur, əsas yaxşı insan olsun. Kimin hansı millətdən olmasının fərqi yoxdur. Əksinə, indi təəssüf edirlər ki, əvvəllər bir sıra xoşagəlməz hadisələr baş verib. Hazırda münasibətlər fərqlidir.

***- Haqlısınız, bir neçə il öncə svanlarla bağlı da xoşagəlməz hadisələr baş vermişdi, ermənilər aranı qarışdırırdı...***

- İndi azərbaycanlılara qarşı münasibət çox yaxşıdır. Hələ mən eşitmişəm ki, gürcülərlə azərbaycanlılar bir-birləri ilə kirvəlik də edirlər. Svanlar da azərbaycanlılara qarşı çox yaxşı münasibət bəsləyirlər. Bir-birinin toylarına dəvət edirlər, bir kənddə yanaşı yaşayırlar. Ermənilər də artıq aranı qarışdırmırlar. Camaat başa düşdü ki, bu yaxşı sonluq gətirmir. Əksinə, bir-birinə yaxşı münasibətdə olmaq lazımdır. Bəlkə də imkanı olmayan qonşu sənə daha yaxındır, nəinki uzaqdakı qohum. Xalq başa düşdü ki, bir-biri ilə mehriban olmaq lazımdır. Heç kim özünə qarşı ayrı-seçkilik, sıxışdırma hiss etmir. Əksinə çox gözəl yaşayırlar. Çox gözəl ölkəmiz var. Gürcüstanın təbiəti, torpağı elə gözəldir ki, burada dədə-babadan yaşayan azərbaycanlılar da buranı öz vətənləri sayırlar, onlar üçün iki vətən var - Azərbaycan və Gürcüstan. Onların milliyyətləri azərbaycanlıdır, amma vətənləri Gürcüstandır. Onun üçün bir-birimizlə yaxşı münasibətdə olmalıyıq, yaxşıyıq da. Hazırda heç bir ayrı-seçkilik hiss olunmur.

***- Bu gün çalışdığınız sahədə insanların işinin yüngülləşdirilməsi üçün nələri təklif edərdiniz?***

- Bilirsinizmi, pasportları, vəsiqələri vaxtlı-vaxtında dəyişmək lazımdır. Və ya sənəd işlərini bu vəsiqələrin, pasportların qüvvədə olduğu vaxta qədər həll etmək lazımdır. Sonra, məsələn, yaşlılar gərək bilsinlər ki, vaxtında vəsiyyətnamə vermək lazımdır. Öz övladlarına vəsiyyətnamə verən də var, hədiyyə edən də var. Bunları vaxtında etmək lazımdır. Sənəd xoşlayır ki, onu vaxtında düzəldəsiniz.

Bir şeyi də demək istəyirəm, soydaşlarımızın adlarında, soyadlarında yanlışlıqlar olur, onlara vaxtında fikir vermək lazımdır. Özləri oxuya bilmirlərsə, gürcü dilində bilən birinə göstərsinlər ki, adları, soyadları düz yazılıbmı? Hərflər düzgün yazılmadığına görə çətinlik çəkirlər. Buna görə, hər bir sənədi vaxtında düzəltmək lazımdır. Amma cavanlar bu işləri vaxtında edirlər. Köhnə sənədlərdə səhvlik var idi, camaat buna o qədər də fikir vermirdi ki, gürcülər azərbaycanlı adlarını düzmü yazır, səhvmi yazır. O zamanın səhvləri çox idi. İndi cavanlar bu məsələdə daha ayıqdırlar. Ona görə, indi vəziyyət inkişaf edir, irəliləyir.

Sadəcə, hamıdan xahiş edirəm ki, sənədlərini vaxtında düzəltsinlər. Arxayın olsunlar ki, sənədləri qaydasındadır. Mən də necə bacarıramsa yol göstərirəm, kömək edirəm. Dediyim kimi, öz camaatıma kömək edəndə özümü çox xoşbəxt hiss edirəm.

**Söhbətləşdi: Asya ŞÜKÜROVA**

# Tovuzda “yaşılq soyqırım”

## Yanıqlı meşələri talan olunur







**Tovuz rayon sakini Azər Məmmədov tərəfindən Hurriyyet.az-ın redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi Tovuz meşələrinin qırılmasına etiraz edir:**

““2 saylı Yanıqlı meşə bərpaçılıq” adı ilə tanınan, lakin bərbadçılıq meşəbəyiliyindən, özünü, maddiyyatını, vəzifə və pulunu düşünən meşə təsərrüfatı direktorundan və hər şeyə göz yuman ekologiya işindən dəfələrlə şikayət etmişəm. Əfsuslar olsun ki, məktubumu şikayət etdiklərimə göndərirlər. Bunlar talan edir, həm də özləri özlərinə cəzamı verəcəklər?!

Tovuz rayon meşə direktoruna mən özüm şəxsən əl ilə əkilən şam ağaclarını göstərdim, baxdı və gülərək mənə dedi ki, çox sağ ol, benzin pulum çıxdı. Bu günə kimi də nə bir töhmət, nə bir cərimə oldu.

Meşədə güya 29 hektar şitil əkiblər. Həmin yerdə sahibkar yataq salıb, mal-qarası isə şitilin içində olur. Bunu da şəxsən ekologiya idarəsinin rəis əvəzi Elşən Şirinov və 3 nəfər tanıdığım işçiyə göstərdim, gördülər və yenədə sükut. Məlum məsələdir.

Mən nə qədər cənab İlham Əliyevə məktub ünvanlayır, Bakıdan nümayəndə istəyirəm, bu, olmur ki olmur. İllərdir 2 saylı Yanıqlı meşəbəyiliyində ağac şitili əkilir, ancaq bitmək bilmir. Nə də nəzarət, cəza və qorxu yoxdur.

İri diametrli, tam sağlam olan və mebelə yararlı fistiq ağacları qırılır. Özüdə əraziyə yalnız traktor və “Qaz 66” markalı avtomobili gedtmək mümkündür. Tək bir ərazi vahidliyində ən azı 300 ev var. Hər evə yaza çıxmaq üçün 2 maşın odun lazımdır, bunu da 1 manata verirlər. Neçə nəfərin adına bilet olur, yoxlamaq lazımdır.

Bir sözlə, meşələri özəlləşdirib, satıb çəpərlətdirirlər. Məftillər ağacları inkişafdan dayandırır. Əgər meşələri çəpərləyirlərsə, gözətçi nəyə görə dövlət büdcəsindən pul almalıdır?! Hər ay gözətçilərin məvacibindən müəyyən miqdarda pul yığılır, güya nazirə verib şitilləri sildirmək üçün. Hansısa bəhanə ilə, məsələn quraqlıq səbəbindən bitmədiyi əsas gətirilir.

Sonda onu da deyim ki, mən nə meşə işində işləmişəm, nə də işləmək fikirim yoxdur. Sadəcə olaraq təbiəti və vətənimi sevdiyim üçün bunları dilə gətirirəm”.

**Hazırladı: Jalə FAMİLQIZI**

# “Allah şahiddir ki, çıxılmaz vəziyyətdəyəm...”

## 4 ildir işsiz olan Ağsu sakini rəsmi qurumlardan şikayətçidir

**Ağsu rayonu, Abasxanlı kənd sakini Məmmədzadə Cavid Ağarza oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, 4 ildən çoxdur Məşğulluq Agentliyində qeydiyyatda olsa da, işlə təmin edilmir:**

“Mən, Məmmədzadə Cavid Ağarza oğlu, yazaraq bildirirəm ki, 4 ildən çoxdur işsizlikdən əziyyət çəkirəm. 4 ildir Məşğulluq Agentliyində qeydiyyatdayam.

2 azyaşlı övladım var. Yoldaşım gözündən əməliyyat olunamlıdır. Özüm ustayam. 6 ildən çox stajım var. Bu ayın 25-də Ağsu rayon Abasxanlı kənd məktəbində vakant yer olacq. Vakant yer olarsa, işlə təmin etmələrini xahiş etmişəm.

Təhsil şöbəsinin müdir müavini Natiq müəllimin qəbulunda oldum. Bildirdi ki, mən sırf həmin yer üçün söz verə bilmərəm. Ordan-ora, burdan-bura göndərildim. Allah şahiddir ki, necə çıxılmaz vəziyyətdəyəm.

Nazir Emin Əmrullayevin sabirabad rayonunda görüşü var idi. Orada məni Taleh adlı şəxs qəbul etdi. Taleh bəy orada Natiq müəllimə tapşırıq verdi ki, bu şəxsi işlə təmin edin.

Ağsu rayon icra başçısı Bağırov Rövşən Elmidar oğlu Abasxanlı kəndinə gəlmişdi. Rayonun deputatı da orada idi. Yaxınlaşıb bildirdim ki, kəndin orta məktəbində boş yer olacaq, işlə təmin olunmağıma kömək edin. Elçin Mirzəbəyli Natiq müəllimə dedi ki, Cavidi işlə təmin et, lakin hələ də mənə iş verilmir. Nə vaxt gedirəm, ya mraciət edirəm, deyirlər ki, səndən qabaq növbədə olanlar var.

Həmin məktəbdə işləyən usta təqaüdə çıxır, öyrənmişəm. Onun yerinə işə girmək istəyirəm. 4 ildir Məşğulluq Agentliyində qeydiyyatdayam, mənə heç bir iş təklif etməyiblər”.




Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Məşğulluq Agentliyi ilə əlaqə saxladıq. Qurumdan bildirdilər ki, Məmmədzadə Cavid Ağarza oğlunun müraciəti araşdırılıb: ”Vətəndaş ”Əmək və məşğulluq” altsistemində işaxtaran kimi qeydiyyatdadır. 2025-ci ilin yanvar ayında müraciəti əsasında Cavid Məmmədzadənin məşğulluq imkanları qiymətləndirilib və özünüməşğulluq proqramı fərdi məşğulluq proqramında uyğun tədbir olaraq müəyyənləşməyib.

Daha öncə vətəndaşın özünüməşğulluq proqramına hər hansı qeydiyyatı olmayıb. Cavid Məmmədzadənin 4 ildir ki, növbədə olması ilə bağlı iddiası həqiqəti əks etdirmir. Özünüməşğulluq proqramının icrası ictimai açıq həyata keçirilir və hər kəs Agentliyin saytında proqrama müraciət edən, qeydiyyata alınınan və növbədə gözləyən vətəndaşların məlumatları ilə tanış ola bilir. Bu səbəbdən heç bir əsas olmadan proqrama müraciət edən vətəndaşların növbədən kənarlaşdırılması mümkün deyildir. Cavid Məmmədzadə digər məşğulluq tədbirlərindən yararlanmaq istəyərsə aidiyyəti üzrə Məşğulluq filialına müraciət edə bilər”.

**Jalə FAMİLQIZI**

# 30 il “Azərsu”da çalışan vətəndaş rəhbərlikdən şikayətçidir

## Prezident tərəfindən "Tərəqqi" medalı verilən Rafiq Nəcəfov haqsızlıqla üzləşdiyini bildirir

**“Azərsu” ASC-nin keçmiş əməkdaşı Nəcəfov Rafiq Yaqub oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi bildirir ki, “Azərsu” ASC (indiki Su Ehtiyyatları Agentliyi) işçilərin haqlarını tapdalayır:**

“Mən, Nəcəfov Rafiq Yaqub oğlu yazaraq xahiş edirəm ki, problemi işqlandırasınız. Şikayətim keçmiş “Azərsu” ASC-dən, indiki Su Ehtiyyatları Agentliyindəndir.

1996-cı ildən həmin təşkilatda işləmişəm. 2020-ci ildə təqaüdə çıxmışam. 2024-cü ilin aprel ayında öz ərizəm və xahişim əsasında işdən azad olunmuşam.




Lakin mənim 2010, 2011, 2022, 2023-cü illərdə sosial sığorta pullarım Sosial Müdafiə Fonduna tam ödənilməyib ki, təqaüd ala bilim.

2013-cü ildə cənab Prezidentimizin sərəncamı ilə ”Tərəqqi” medalı ilə təltif olunmuşam.

2024-cü və 2025-ci ildə 3 dəfə Su Ehtiyatları Agentliyində,1 dəfə Sosial Müdafiə Fondunda, 2 dəfə isə Azərbaycan Respublikası Prezident Adminstrasiyasının Vətəndaşların Qəbulu Mərkəzində şikayətdə olmuşam. Lakin heç bir nəticə əldə edə bilməmişəm.

Təsərrüfat işlərinə marağım olduğundan kiçik bizneslə məşğul olmaq üçün Naxçıvan Muxtar Respublikasının Şərur rayonuna köçmüşəm. 2024-2025-ci ildə təsərrüfatımı kimsəsiz qoyub, 2 dəfə Bakı şəhərinə gəlmişəm. Lakin Su Ehtiyatlar Agentliyinin Baş mühasibi məni qəbul etməyib.

Su Ehtiyatları Agentliyinin 20 yanvardakı binasından, polisin yanından daxili telefonla baş mühasib Toğrul bəylə danışdım. O, mənə söz verməşdi ki, mart ayına qədər bu məsələ həll olunacaq, amma bu günə qədər həll olunmayıb”.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Çox sayda villalar tikən, iri maşınlar alan insanlar mənəvi acdırlar"

## Psxoloq Solmaz Məmmədova: "Gün ərzində uşağın 8 dəfə, böyüyün 4 dəfə qucaqlaşmaq ehtiyacı var"

## "Soial medianın mənə nələr etdiyini görəndə ondan uzaqlaşdım"

Bir sıra asılılar söhbət əsnasında bildirirlər ki, narkotikə və digər uyuşdurucu vasitələrə "həzz almaq" üçün yönəliblər. Bəziləri deyir ki, xoşbəxt olmağa çalışarkən narkotikə rast gəlib və bu maddəni "xoşbəxtlik və həzz almaq" üçün istifadə ediblər...

**Tibb sahəsindən də bildiyimz kimi, insanın özünü xoşbəxt hiss etməsində iki əsas hormon rol oynayır - serotonin və dopamin. Bəs insana həyatından qane olmağa kömək edən serotonin və dopaminin qaynağı nədir? Serotonin həzm sistemi və bağırsaqlarla əlaqəlidirmi? Əlaqəlidirsə, bu, hansı şəkildədir? İnsanın psixoloji-mənəvi baxımdan serotonin-dopamin hormonunun yaranması, dolayısı ilə bunun asılılıqların tətiklənməsində rolu necə baş verir? Suallar çoxdur. Gəlin, məsələyə çoxtərəfli prizmadan baxaq. Tanınmış psxoloq, Neyro koç, NLP master, İmgeterapi uygulamacısı Solmaz Məmmədova bir çox qaranlıq mətləblərə aydınlıq gətirir. Buyurun, oxuyun.**

***(Əvvəli ötən sayımızda)***

O ki qaldı serotonin, oksitosin, melatonin, dopaminlə asılılığın əlaqəsinə, bunlar hamısı bir-birinə bağlı olan şeylərdir. Bu hormonların ifraz olunmasının bizim qidalanmamızla əlaqəsi var. Serotoninin bağırsaqlarda ifraz olunmasının bizim yeməyimizlə əlaqəsi var. Əgər gecə saat 3-də yemək yeminsənsə, bir yeməyi həzm etməmiş digərini yeyirsənsə, insulin dəngəsini, beləliklə də hormonların ifraz olunma sistemini pozursan. Bu halda xoşbəxt ola bilməzsən.

Məsələn, çox şirniyyat yeyirsənsə, göbələkdən tutmuş bütün zərərli bakteriyalar şirə ilə orqanizmə daxil olur. Xərçəng xəstəliyi olan insanın ilk növbədə şirniyyatını kəsirlər. Çünki xərçəng çox şirin yeyən insanlarda sürətlə yayılır. 100 il öncə yemək vərdişlərimiz belə deyildi. Qıda olaraq vaxtından əvvəl yetişən pomidor, xiyar yemirdik. İndi orqanizmimiz çaş-baş qalıb. Çiyələk iyunda bitirdi, artıq martda çiyələk olur. Bu hormonlarla bitirilir. Hormonlarla yetişmiş meyvə-tərəvəzi yeyən insanın xoşbəxtlik hormonları "bayram edə bilməz". Bunlar məsələnin yeməklə-həzm sistemi-bağırsaqlarla bağlı fiziki tərəfidir.

-Bəs, məsələnin psixoloji tərəfi haqda nə deyə bilərsiniz?

- İndi məsələyə pxisoloji tərəfdən baxaq. Oksitosin adlı hormonumuz var. Oksitosin qucaqlaşmaq, toxunmaq, anası ilə yaxınlıq, bədənsəl ünsiyyət istəyir. Çünki, hələ xoşbəxt olmaq üçün demirəm, yaşamaq üçün gün ərzində uşağın ən az 8 dəfə, böyüyün ən az 4 dəfə qucaqlaşmaq ehtiyacı var. Gəlin baxaq, hansı böyük insan gündə 4 dəfə, hansı uşaq gündə 8 dəfə qucaqlaşır?! O uşağa "sən dəyərlisən, yaxşı ki, varsan, səni sevirəm" deyilir?! Bəlkə də bəzi fərqindəliyi olan valideyinlər var, amma bir insan ona göstərilməyən, verilməyən şeyi verə bilmir. İnsan sevilə-sevilə sevməyi öyrənir. Və bir insanın bədənsəl ehtiyacı ödənməyəndə, okstitosin hormonu ifraz olunmayanda, bu fiziki boşluq mənəvi boşluğa, aclığa çevrilir.

Asılılıqlarda serotonindən çox, oksitosin hormonunun əksikliyini görürəm. Çünki uşaqla bədənsəl ünsiyyət çox olmalıdır. Məsələn, II Dünya müharibəsindən sonra Amerikada yetimxanalarda çoxlu uşaq ölümü baş verib. Bunun səbəbini araşdıranda görürlər ki, uşaqların heç bir əksikliyi yoxdur. Sadəcə yetimlərin sayı o qədər çox olub ki, baxıcıların onları qucağına almasına, danışdırmasına, oynatmasına və s. vaxtları olmayıb. Bizdə də belə söz var idi: uşağı qucağa öyrəşdirmək olmaz, ağlayıb-ağlayıb səsini kəsəcək, uşağı özünə öyrətmə, öz yanında yatırtma və s. Belə olanda o uşaqda güvən problemi yaranır.

Uşaq ananın döşünü əməndə təkcə süd əmmir, anadan qeyd-şərtsiz sevgi, güvən, göz təması alır. Hər şeyin təməli ana-uşaq ünsiyyətində qoyulur. Əgər ana uşağa süd verəndə telefona baxırsa, qonşuyla danışırsa, əriylə dalaşırsa, birinci o emosiyaları uşağa ötürür. Bu vaxt uşaq ananın gözünün içinə baxır. Uşağa süd verən ana uşaqla kontakt anında ona əhəmiyyət vermirsə, bu, uşaq üçün "anam məni görmür" deməkdir. Bizim ən böyük dərdimiz nədir: bu qədər villalar tikən insanlar, iri maşınlar alan insanlar "məni görün" deyir.

***- Deməli, bunlar təməlində həmin mənəvi aclıq olan insanlardır?***

- Bəli. Onlarda özgüvən o qədər əskikdir ki, bunları göstərərək "məni görün, bu maşınsız mən heç kiməm" deyirlər. "Böyük maşına minrəm ki, məni görsünlər. Bahalı saat taxıram ki, məni görsünlər. Bahalı ayaqqabı geyinirəm ki, məni görsünlər. Brend çanta götürürəm ki, məni görsünlər". Yəni "mən özümü o qədər görünməz sayıram, anam süd verəndə məni o qədər gərəksiz sayıb ki, özümü bunlarla görünən edirəm". Erix Fromun "süd və bal" sözü var. O deyir ki, ana uşağı əmizdirəndə ona yalnız süd vermir, süd və bal verir. Ana südə bal qatmır ki. Bal ananın südlə ötürdüyü sevgidir, şəfqətdir, uşağa verdiyi, "sən varsan, sən mənim üçün çox önəmlisən" sözüdür. Ana bunu etmədisə, burada o sözü demədi. Sonra uşaq böyüyür, ağlayır,



susur. Uşağın şüuraltına bu informasiya ötürülür: "Heç kimə lazım deyilsən, heç kim kömək gəlməyəcək, başının çarəsinə baxmalısan". Yenə dəyərsizlik duyğusu şüuraltına girir. Uşaq bağçaya gedir, gəlib evdə olanları anasına danışır, anası deyir, əşi, get oyuncağınla oyna. Ona telefon verir ki, başı qarışsın. Kompüteri açır ki, uşaq oynasın və onu rahat buraxsın. Uşağı yedirdəndə də onun gözünə baxmır, göz ünsiyyəti qurmur. Uşaq yeməkyeyəndə anası ilə yox, telefonla olduğuna görə doymaq hissini itirir. Bu, artıq psixoloji aclıqdır və ağıl da "burada və indidə" deyil, başqa aləmdədir.

Məsələn, çox əmizdirilməmiş uşaqların sonralar qulaq problemləri yaranır. Çünki ağız əzələləri işləməyə alışmadığından qulaqlarında iltihab çox yaranır. Ana döşü əmməyən uşaqlar yeməyi diri udurlar. Bu, serotonin hormonunda da sözünü deyir. Çünki çeynəmə refleksi yoxdur. Uşaq ananın döşündən süd əmmək üçün əziyyət çəkməlidir, ağız əzələləri, dil, damaq işləməlidir. Uşaq südü sormağı öyrənməlidir. Sonradan uşaq həyatda mübarizə aparmağı öyrənmir. Bu isə ona "hazıra nazir" olmaq hissini aşılayır: hər şey mənə hazır gəlsin, hamının mənə borcu var, dövlət mənə iş verməlidir, prezident mənə vəzifə verməlidir və s. Çünki ona ilk qida hazır gəlib və şüuraltına "hamının mənə borcu var" mesajı gedir.

Uşaq məktəbə gedib-gəlir, hisslərini bölüşmək istəyir. Analar uşağa nağıl oxumalıdır. Bu proses özü nağıl terapiyasıdır. Amma nə var, "çölə tək çıxma, oğurlayarlar, asarlar, kəsərlər" və s. Düzdür, təhlükəsizlik üçün bu vacibdir. Amma digər tərəfdən uşağa mesaj gedir: çöl təhlükəlidir və o, qorxmağa başlayır. Zatən, anayla bağı olmayan insanın dünyayla bağı olmur.

**Hazırladı: İ. SABİRQIZI**

# Vətənlə bir vuran qəlb sahibi



İkinci Qarabağ müharibəsi Mirlətif Mirislam oğlu Ağayev kimi qeyrətli igidlərin qanı bahasına zəfərimizlə bitdi. Cəlilabad rayonunun Göytəpə şəhərində boya-başa çatan Mirlətif ömrünü canından artıq sevdiyi Vətəni üçün yaşadı, 30 yaşında əbədiyyətə qovuşdu. Ağır müharibə meydanında qəhrəmanlığı ilə tarix yazan Cəlilabad elinin igid oğlu cismən aramızdan getsə də, iftixar mənbəyimizə, qürur yerimizə döndü. İndi o, Günəş ömrü yaşamaqla daha əzəmətli görünür. İnsanın həyatda ləyaqətlə, şərəflə yaşaması üçün bütün dəyərləri bu əzəmətdən görüb-götürmək olur.

Qəlb dünyası sevdalı olan Mirlətif Ağayev 2008-ci ildə orta məktəbi bitirib. Həyat amali insanlara daha çox fayda vermək, qəlb sevindirmək olan yeniyetmə elə həmin il Tibb Universitetinə daxil olub, 2013-cü ildə ali təhsilini mükəmməl şəkildə başa vurub. Vətən məhəbbəti Mirlətifi ordu sıralarına aparıb. Cəbhə bölgəsində zabit kimi doğma Azərbaycana ləyaqətlə xidmət edib. Öz şəxsi nümunəsi ilə əsgərlərin qəlbində də Vətənə məhəbbət, cəsurluq, Qarabağımızı işğal etmiş yağıya nifrət hisslərini aşılayıb. Vətən eşqli zabit 2015-ci ildə ehtiyata buraxılıb.

Doğma elində Mirlətif əynində ağ xalatı görəndə qürur hissi keçirdib. Xəstələrinə həssas, qayğıkeş münasibət bəsləyib. Onlara ikinci həyat bəxş edəndə dünyalar qədər sevinib. Gözəl həkim, ləyaqətli, vicdanlı, təmiz oğul olaraq el-obada hamının hörmətini qazanıb. Bütün bunlara baxmayaraq Mir lətf həmişə düşmən tapdağında qalan Qarabağımızın taleyini düşünüb və Vətən çağıracağı, işğal olunmuş ərazilərin hərbi yolla azad olunacağı təqdirdə hər an ön sıralarda yer almağa, düşmənə qarşı son nəfəsinə qədər döyüşməyə hazır durub. İkinci Qarabağ müharibəsi başlanan günü Azərbaycan Ordusunun leytenantı Mirlətif Ağayev Vətəni hər şeydan üstün bilməklə savaş meydanına girib. Cəbrayılın və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə yağıya ağır zərbələr vurmaqla yanaşı, yaralanan hərbçilərə yerindəcə yardım edib, onlara ikinci həyat verib. 247 yaralı əsgəri, 20 şəhidi döyüş meydanından çıxarıb. Özü isə oktyabrın 26-da Qubadlı döyüşləri zamanı qəhrəmancasına şəhid olub. Noyabr ayının 7-də ata yurdu olan Ləkin kəndində torpağa tapşırılıb. Müharibə meydanında göstərdiyi şəxsi şücaəti ölümündən sonra "İgidliyə görə", "Vətən uğrunda", Cəbrayılın və Qubadlının azadlığına görə medallarına layiq görülüb.

Bəli, deyirlər ki, hər bir insanın tarixi dəyəri onun öz Vətəni, xalqı üçün gördükləri ilə ölçülür. Mirlətif dünyadan tez getsə də, göstərdiyi qəhrəmanlıqla Azərbaycanın yeni, şərəfli tarixinə daxil oldu.

**Zəfər ORUCOĞLU**

# 30 ildən sonra qalıqları tapıldı...

Müşfiq Cəfərov doğma Monidigah kəndinə anılıb



**Dağlar diyarı Lerik rayonunun Monidigah kəndində boya-başa çatan Müşfiq İlyas oğlu Cəfərov özünü biləndən gözəl əməllərə can atıb, Vətəninə, xalqına ürəkdən bağlanıb. Mərdlik, düzlük onun həyat kredosuna çevrilib.**

Orta məktəbdən sonra sinəsini Vətənə sipər etmək üçün ordu sıralarına ürəklə gedib. Birinci Qarabağ müharibəsi zamanı bir müddət erməni dığalarına qarşı mərdliklə döyüşüb. Hünəri, qeyrəti bütün əsgər yoldaşlarına nümunə göstərilib. 1994-cü il yanvarın 26-da Füzuli rayonunun Aşağı Əbdürrəhmanlı kəndi uğrunda gedən döyüşlərdə itkin düşüb. 30 ildən sonra qalıqları tapılaraq dəfn edilmək üçün doğma Monidigah kəndinə gətirilib. İndi uyuduğu torpağı kənddə kiçik də, böyük də özünə müqəddəs and yeri bilir.

Bu günlərdə Müşfiq İlyas oğlu Cəfərovun birinci il mərasimi keçirildi. Rayon rəsmiləri, idarə, müəssisə, təşkilat rəhbərləri, ictimaiyyət nümayəndələri və şəhidin ailə üzvləri ölümsüzlüyə qovuşan qəhrəman Vətən sevdalısının məzarı önünə gül-çiçək dəstələri düzərək, əziz xatirəsini ehtiramla yad etdilər. Çıxışlar zamanı bildirildi ki, Vətənin, torpağın müdafiəsi uğrunda canını fəda edib şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəfdir, qürurdur. Bu zirvəyə ucalanlar heç vaxt ölmürlər. Bizim Müşfiqdə belə. Qərinələr keçəcək gələcək nəsillər onu layiqli vətəndaş kimi xatırlayacaq.

**Zəfər ORUCOĞLU**

# Mirnağının şəhidlik zirvəsi



Mirnağı Qasım oğlu Şərifov Vətəninə, xalqına bağlı ləyaqətli bir oğul kimi boya-başa çatıb. Yaşadığı Cəlilabad rayonunun Bəcirəvan kəndində öz səmimiyyəti, əxlaqı, insanpərvərliyi ilə el-obada hörmət qazanıb. Həyat eşqi çağlayıb gənc köksündə. Qurub-yaratmaq amallı olan Mirnağını qarşıdan sevdalı günlər naminə neçə-neçə gözəl işlər gözləyib. Amma erməni quldurları ona aman vermədi. 44 günlük haqq savaşımızda ağır müharibə meydanında ömrünün 25-ci ilində canını Vətəninə fəda edib. Mirnağının tutduğu bu müqəddəs yol onu əbədi ürəklərdə yaşatmaq üçün əlçatmaz, ünyetməz göylərə ucaldıb. Torpağa gömülmədən könüllərə köç edən ölümsüzlüyə qovuşan qəhrəman dövlət tərəfindən "Rəşadət" ordeni, "Vətən uğrunda", "Hərbi xidmətlərə görə", Kəlbəcərin, Şuşanın azadlığı uğrunda medallarına layiq görülüb.

Ürəyi hər zaman Vətən eşqi ilə döyünən Mirnağı Şərifov yağı düşmənin əzəli yurd yerimiz Qarabağın işğalına çox narahat olub. 18 yaşına çatanda ordu sıralarına yola düşəndə erməni dığalardan sona qədər döyüşərək qisas alacağına and içib. Qismətinə cəbhə bölgəsində yerləşən hərbi hissədə xidmət etmək düşüb, o, bununla qürur duyub, bir daha adına can dediyi, özündən artıq istədiyi, hər qarışını doğma bildiyi Azərbaycana olan sevgisi artıb. Vətən qarşısında övladlıq borcunu şərəflə və ləyaqətlə yerinə yetirən Mirnağı təlim-məşqlərdə fəal olub, yağıya yerini göstərməkdən ötrü döyüş sirlərinə dərindən, mükəmməl yiyələnib. Çalışqanlığı, bacarığı nəticəsində bu sahədə günü-gündən təcrübəsi, səriştəsi artıb. Silahların dilini, onları idarə etməyi öyrənib. Mirnağı xidməti müddətində düşmənlə mübarizə aparmaq üçün özündə tükənməz qüvvə hiss edib. Yaxşı fiziki və siyası hazırlığa malik bu vətənpərvər gəncdən hərbi hissədə nümunə götürüb, Vətəni sevməyi, doğma torpağı necə qorumağı onda öyrəniblər.

44 günlük haqq savaşımız başlananda Mirnağı Şərifov gizir rütbəsində Azərbaycanın mərd oğulları ilə Vətənin harayına birincilər sırasında hay verib. Silahlanıb 30 il əsir düşən Qarabağımızın azadlığı uğrunda odlu səngərə girib. Ölüm-dirim savaşları gedən ən qaynar nöqtələdə yağının kabusuna çevrilib. Dığalara sarsıdıcı zərbələr vurmaqla bacarıqlı, səriştəli bir döyüşçü olmaqla tanınıb. Hər dəfə öndə gedib, düşmənə ciddi itki verməklə ağır sınaqlardan zəfərlə çıxıb. Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlərdə isə yüksək şəxsi rəşadət və şücaət göstərib. Mirnağı 21 oktyabr 2020-ci ildə döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhidlik zirvəsinə ucalıb. Bu şərəfli ölümlə də Cəlilabad elinin mərd oğlu adını qəhrəmanlıq tariximizə yazıb.

**Zəfər ORUCOĞLU**

# Vətənin Kənan oğlu

## Döyüş meydanında qazandığı hünər ona bütöv bir xalqın əbədi məhəbbətini qazandırıb və adı dillərdə qəhrəmanlıq simvoluna dönüb

1998-ci ildə Cəlilabad rayonunun Məmmədrzalı kəndində dünyaya göz açan Kənan Məmmədov Vətən müharibəsində 30 il düşmənə əsir düşən Qarabağımızın azadlığı uğrunda çəkinmədən, qorxmadan özünü odun-alovun içinə atıb. "Təki Vətən yaşasın!",- deyib son damla qanına qədər yağıya qarşı qəhrəmancasına vuruşub. Döyüş meydanında qazandığı hünər ona bütöv bir xalqın əbədi məhəbbətini qazandırıb və adı dillərdə qəhrəmanlıq simvoluna dönüb. Dünya durduqca Kənanın 22 illik şərəfli ömür yolu hər gələn nəsillərə örnək olacaq. Dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" medalı da Kənanla maraqlanan hər kəsə onun döyüş meydanında göstərdiyi şücaətdən danışar...



Kənan Tofiq oğlu Məmmədov kənd orta məktəbində oxuduğu zaman doğma yurduna sonsuz məhəbbəti, gözəl tərbiyəsi onu hamının sevimlisi edib. Bu, istedadlı, vətənpərvər oğlan yaxşılardan görüb-götürməklə boy atıb. Qəlbində olan bütün saf arzularını da Vətənlə bağlayıb. Orta təhsilini başa vuranda son dərəcədə ağıllı, mərd, cəsur bir gənc kimi tanınıb, sevilib. Doğma Azərbaycanın müqəddəsliyinə tapınaraq ona daim sədaqətli olmaq üçün hərbiçiliyi daha şərəfli peşə bilib.

Qəlbində Vətən sevgisi, erməni quldurlardan intiqam, qisas almaq alovu cəbhə bölgəsində həqiqi hərbi xidmətə başlayıb. Əsgəri borcunu şərəflə yerinə yetirib. Həmişə də nəyin bahasına olursa-olsun əsir Qarabağımızın mənfur düşmən tapdağından azadlığını düşünüb və döyüş meydanında onun başını əzməkdən ötrü hərbi təlimlərə həvəslə qoşulub, çətin məqamlarda belə cəsurluğu sayəsində uğur qazanıb. Vətən üçün yaşayan Kənan əsgərlikdən sonra öz həyatını tam hərbiyə bağlayıb, bu sahədə nümunəvi xidmətini davam edib. Ermənistan işğalçı hərbi birləşmələrinin 2020-ci il sentyabrın 27-dən cəbhə xətti boyunca Azərbaycanın hərbi mövqelərini və yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmasına cavab olaraq Ordumuz Ali Baş Komandanın əmri ilə əks-hücuma keçib. İkinci Qarabağ müharibəsi başlanıb. Kənan Məmmədov Vətənin ağır günündə qeyrətli oğul kimi onun harayına birincilər sırasında hay verib və əlində silah odlu səngərdə yağıya qarşı savaşa girib. Qatıldığı neçə-neçə qanlı döyüşlərdə rəşadət nümunəsi göstərərək düşmənə ağır itkilər verib. Sonda Talış kəndi və Suqovuşan istiqamətində şiddətli müharibə meydanında tarix yazaraq qəhrəmancasına şəhadətə qovuşub.

Kənan Məmmədov Vətən uğrunda şəhid olmağı özünə şərəf bildi. Belə cəngavər, qeyrətli oğulların həyat yolunu örnək seçməklə onlarla qürur duymağa dəyər.

**Zəfər ORUCOĞLU,**
**Azərbaycan Jurnalistlər Birliyinin üzvü**

# Vətənə şöhrət olan Vüqar



44 günlük haqq savaşımızda adını qəhrəmanlıq tariximizə yazan minlərlə qeyrətli Vətən övladlardan biri də 1988-ci il sentyabrın 28-də Göytəpə şəhərində anadan olan Vüqar İbadovdur. Şərəfli ölümü ilə Vətəninə, xalqına şöhrət olan Cəlilabadın qəhrəman oğlu heç zaman unudulmaz. Zəfər tariximizin müəllifi kimi keçdiyi 32 illik ömür yolu gələn nəsillər də örnək olacaqdır.

Vətən sevgisi ilə böyüyən Vüqar Sadiq oğlu 2004-cü illərdə V. Hüseynov adına Göytəpə şəhər 2 saylı tam orta məktəbini bitirəndə yaxşı əməllər sahibi olaraq el-obada hamı ona hörmət bəsləyib. Vüqar insanlara daha çox xeyir vermək məqsədilə Cəlilabad Peşə liseyini də yüksək səviyyədə başa vurub. Gözəl günlərə doğru üz tutsa da, qaldı ki, erməni faşistlərin Qarabağımızın işğali onu rahat buraxmır. 2006-cı ildə həqiqi hərbi xidmətə yola düşəndə deyib: - Erməni dığaların Vətən torpaqlarına ayaq basması bizə heç cür yaraşmır. Mənim əsas arzum döyüş meydanında yağıdan qisas almaqdır.

Vüqarın əsgərliyi cəbhə bölgəsində keçib. Nümunəvi xidməti onu əsgərlərə, zabitlərə sevdirib. Qarabağın taleyini düşünməklə hərbi təlimlərdə fəal olub, döyüş meydanında dığalara layiqli cavab vermək üçün mükəmməl təcrübə qazanıb. Həmçinin xidmət zamanı Vüqarın cəsurluğu, qorxmazlığı, yurdsevərliyi, torpaq canlı, vətənpərvər olması ürəkdən bəyənilib. Əsgərliyi üzüağ başa vursa da, yağıdan alacağı öcə görə həyatını orduya bağlayıb və məqamı gələndə düşmənlə sona qədər döyüşüb qisas alacağına and içib. Məqsədinə çatmaqdan ötrü hərbi qulluqçularının hazırlığı kursunu keçərək tankçı ixtisasına yiyələnib, döyüş üçün bir daha püxtələşib. Ən əsası haqq işimiz naminə canından-qanından keçməyə hazır olub.

Köksündə qəhrəman ürəyi döyünən Vüqar İbadov İkinci Qarabağ müharibəsinin ilk günündə ən qaynar nöqtələrdə döyüşə girib. Cəbrayıl-Füzuli-Qubadlı istiqamətlərində gedən ağır müharibə meydanında idarə etdiyi tankının qarşında düşmən heç cür duruş gətirə bilməyib və ciddi itki verməklə qaçmağa üz qoyub. Oktyabrın 9-da Aşağı Seyidəhmədli kəndi uğrunda gedən döyüşlərdə sözün əsl mənasında dığalara qan qusdurub. Göstərdiyi hünər, düşmənə vurduğu zərbələr daha sarsıdıcı olub. Bu ölüm-dirim savaşında özü də ağır yaralanıb.

Hospitalda müalicə alan qəhrəman Vətən sevdalısı oktyabrın 19-da əbədiyyət adlı dünyasına qovuşub. Nəsibi əzəmətli, müqəddəs şəhidlik zirvəsindən boylamaq səadəti olan Vüqar İbadov əlçatmaz, ünyetməz ulduzlu bir ömür qazanmaqla, həm də dövlət tərəfindən "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Qubadlının azad olunmasına görə" medalı ilə təltif edilib.

**Zəfər ORUCOĞLU**

**İncəsənət ictimai şüurun bir forması kimi səciyyələndiyindən, onun təsir dairəsi ən çox insanın mənəvi aləmilə ölçülür. İnsan intellektindən asılı olmadan adi halda belə, əsərdən zövq alır, ruhi qida onda coşğunluq hissini oyadır. Xalq qənaəti təsadüfi yaranmamışdır deyək: “Musiqiçilər gec qocalır”, “Həyatsevər olurlar”, “Kədərdən qaçırlar” və sair.**



# İncəsənət və Erotika



**Allahverdi Eminov**

Əlbəttə, əsil incəsənət əsərinə gəldikdə o, bədii - məntiqi idrakla həqiqəti əks etdirən illüstrasiyaya bənzəyir. Lev Tolstoy yazmışdır ki, incəsənətin vəzifəsi məhz mühakimələrlə çatdırılan bir şeyin anlaşıqlı olmayan cəhətlərini aydın və düzgün şəkildə əks etdirməkdən ibarətdir. Məsələn, tamaşaçı incəsənət əsərinə baxanda öz duyumunu və bundan doğan təəssüratını - fikrini sözlə bildirir, yəni söz əyaniliyə xidmət göstərir, tamaşaçı öz yozumundan söz vasitəsilə əsərin verdiyi bədii - estetik informasiyaları mənimsəyir, hisslər ötürücü rolunu oynayır. Lakin peşəkarlıq baxımından bu, həmişə baş tutmur, müəllifin qayəsini ya qavraya bilmir, ya da başqa nəticələr çıxarır, bədii - intellektual zövqünə cavab vermir. Yuxarıdakı fikrimə qayıdıram. İncəsənət nümunəsi - musiqi yaradanın - müəllifin, yaxud onu dinləyənin daxili coşğunluğunu ehtizaza gətirməklə, hətta erotik - şəhvani hissləri oyadır. Xüsusilə, Şərq musiqisində erotik çalarlar güclüdür və bu, o vaxt hissləri üstələyir - insan emosional ovqatını yaşayır, bir şərtlə, musiqi sosial - idraki çalarlardan uzaq səslənsin və ritmiklik erotik şüanı özündə əks etdirsin. Təsadüfi deyil ki, Şou - konsertlərin nümayişi - incəsənətin bir təbliğ forması olmaqla yanaşı, erotik çalarları oyadır. Məsələn, məşhur italyan kino ulduzu Rafaello Karra xoşlayır ki, parıltılı - seksual tərzdə görünsün. Bəs “eros” nədir? Bu gün də mübahisələrdən yaxasını qurtarmayan bu anlayış dahi İsveçrə psixoloqu Z.Freydə görə, yaşamağa olan həvəsdir. Həqiqətən, erosun yaradıcı şəxsdə təzahürü onun coşğunluğunu yeni nəyisə yaratmağa çağırır. Z.Freyd qeyd edir ki, bütün yaradıcılıq prosesi seksual enerjinin (“libido”) yüksəlməsi (“sublimasiya”) nəticəsində baş verir. İncəsənət də röyaya bənzər bir şeydir ki, bu prosesdə təhtəlşüur daha parlaq şəkildə təzahür edir. Eros - həvəs yaradıcılıq üçlüyündə yaradıcı şəxsin psixikası öz ənənəvi davranış istiqamətini itirir, hətta ağılsızlıq dərəcəsinə çatır və bu vaxt bədii yaradıcılıq aktı baş tutur. Ən dahiyanə əsərlər məhz bu “dəliliyin” xoşbəxt övladıdır. Hərçənd, Z.Freydin “libidosu” ilə razılaşmayanlar bilməlidir ki, “seksual enerji”nin mövcudluğu incəsənət əsərinin (musiqi, ədəbiyyat və s.) yaranmasında sənətkarı “özünü zorlamaq”, güc - bəla ilə nəyisə ortaya çıxarmaq əzabından qurtarır! Əlbəttə, erotik hiss, meyl yaradıcı adamın bütün varlığını (fizioloji, psixoloji, ictimai fəaliyyəti) əhatə etməlidir ki, yaradıcılıq anlarında sevgi yaransın, bu vaxt “libido” enerji mənbəyinə çevrilsin. Sevgi isə iki canlı obyektin - tərəf - müqabilin birləşməsini - birgə yaşamaq - simbioz münasibətini şərtləşdirir, necə ki, yaradıcı şəxslə incəsənət əsəri arasındakı sevgi kimi! Sevginin motivləşməsi isə psixoloji - hissi anlarla bağlıdır. Leon Edel yazırdı: “Ədəbiyyatla psixologiya ortaq bir zəmində yüksəlir. İkisi də insan motivləri və davranışları ilə bağlı olub insan oğlunun miflər yaratmaq və rəmzlə işləmək qabiliyyətini incələyir”.

Erotika yaradıcılıq prosesində həm nicat, həm lənət kimi bir-birini tamamlayan və inkar eləyən qüvvənin qavranılmasını ödəyir. Belə məqamlarda erotik əhval xüsusilə qadınlarda iki münasibəti ehtiva edir: Fərd (şəxs) bir yandan emosional və peşə baxımından qadından asılılığını başa düşür, digər tərəfdən, qadına məmnunluq, seksual ödənişi necə yerinə yetirmək dilemması önündə qalır. Sənətçilərdə belə hisslər daha aydın şəkildə özünü büruzə verir...

Erotika yaradıcılıq prosesində həm nicat, həm lənət kimi bir-birini tamamlayan və inkar eləyən qüvvənin qavranılmasını ödəyir. Belə məqamlarda erotik əhval xüsusilə qadınlarda iki münasibəti ehtiva edir: Fərd (şəxs) bir yandan emosional və peşə baxımından qadından asılılığını başa düşür, digər tərəfdən, qadına məmnunluq, seksual ödənişi necə yerinə yetirmək dilemması önündə qalır. Sənətçilərdə belə hisslər daha aydın şəkildə özünü büruzə verir. Onlara bəllidir ki, qadınlar kişilərin sənət meydanının pərəstişkarlarıdır. Emosional əhval sənətçinin şəxsi şöhrət çələngində parlaya bilər. Bu “seksual şəfa” kimi xarakterizə olunur. “Seksual şəfa” əgər Z.Freydin ifadəsincə desək - libido - seksual enerji yaradıcı şəxsin intellektual qabiliyyətindən adlayıb, emosional ovqata meyilli olur və yaradıcılığı coşdurur.

Bəllidir ki, erotik meyl - hiss azad, sərbəst olmadığından insanın intim təxəyyülündə dolaşır və üzə çıxmağa çalışır. Bu isə təbiidir ki, ictimai mühitlə bağlı qapalı qalır və məcburiyyət qarşısında yalnız incəsənətdə (musiqidə, poeziyada) oyanır. Z.Freydin təhtəlşüuru yaradıcı fəaliyyətdə mütləq təzahür edir, daha doğrusu, “libido”, bu sahədə (yaradıcılqda) reallaşır. Dahi psixoloq və onun tərəfdarları göstərdilər ki, sənət əsərləri məhz intim hissə uyğun gələn duyğularda ifadəsini tapır və bunun üçün həzz, zövq mənbəyinə çevrilir.

Gizlin deyil ki, “libido”nun elmi və əxlaqi mahiyyətini araşdırıb aşkarlamaq əslində yasaq kimi bir şeydir, bir qrup “intellektlərin” həyasına toxunur və bunu iddialaşdırmağa çalışırlar. Bir həqiqətdir ki, insanın cinsi meyli azad, tam şəkildə üzə çıxa bilmir (burada müsəlman əxlaqı da müəyyən səddlər çəkmişdir), nəticədə bir növ “geri” çəkilir, gizlənir, yəni təhtəlşüur sahəsinə qısılır və təzədən insan fəaliyyətinin müxtəlif formalarında, o cümlədən, yaradıcılıq prosesində təzahürünü tapır. Bu, Z.Freydin qənaətincə, incəsənətdə zühur edir, yəni incəsənət intim meylin və enerjinin dəyişilmiş şəklidir. Buradan bir sual çıxır: İncəsənətin doğurduğu erotika nə üçün əsərdən uzaqlaşmaqla tamamlanır? Suala çoxsaylı cavab axtarmaq və çox yerə yozmaq mümkündür. Məncə, başlıcası odur ki, erotik münasibət iki yanaşma ilə bağlıdır. Birisi, zahiri əyləncəyə və nəşəyə, digəri məhəbbətin fiziki nəzəriyyəsinə, simbioz (birgə yaşamaq) meylə, özünüfədaya hazır olmağa əsaslanır. Lev Tolstoyu bir də xatırlayaq. “Anna Korenina” romanında 2 xətt aparıcıdır: Vronski - Anna və Levin - Kiti xəttləri. Oxucu Levin - Kiti münasibətlərini gözü önündə canlandırdıqda, evlənmənin, ailənin valideynlik çalarlarını görür, Vronski Anna ittifaqını müşayət edəndə, erotik hissin fiziki məhəbbətə xidmətini canlandırır. Təbiidir ki, İnsan varlığında 2 hiss yaşayır: İnsan və Şəhvani (erotik) ruh. Birinci alidir, bəşəridir, ikinci intim münasibətdə tam fərdidir və yalançı, şəxsi nəşəyə bürünüb ani, keçici zövqlə hər şeyə nöqtə qoymaqdır, artıq “ruhi təmizləmədən” uzaqlaşmaqdır.

İncəsənətdə insanın Dünya ilə ovqatının harmoniyasını tamamladığından - şəxsi ləzzət rəmzi kədəri və emosional varlığı canlandırır. İncəsənət əsəri (xüsusilə, musiqi - əyanilikdən uzaq olduğundan) qadın vücudunun mahiyyəti (intellekti, peşəsi, ixtisası və s.) ilə deyil, onun xarici - emosional impulsları ilə hesablaşır və ontoloji (fərdin bütövdən sırf mexaniki asılılığı) mənaya - fərdi müstəqil varlıqdan uzaqlaşdırmaya və qadın varlığını erotik xülyaya (fantaziyaya) çevirməyə gətirib çıxarır. Bu zaman gineseoloji münasibət dinləyicinin, tamaşaçının erotik ruhunu varlıqla birləşdirir.

***Vilyam Şekspir:***
**Həyat teatrdı, insanlar aktyor**
**Onların dostluğu bir təsadüfdən başlamışdı...**

# Oyun və ya üçüncü artıqdır

## *(Psixoloji hekayə)*

**Həmişə olduğu kimi həyətdə uşaqlar ucadan qışqıra-qışqıra futbol oynayırdılar. Ruslan da kənarda dayanıb onların oynuna tamaşa edə-edə iki üç il bundan qabağı xatırlayırdı. O da öz yaşıdları ilə hər gün dərsdən gələn kimi top qovalayardı. Amma indi universitetdə psixologiya ixtisasi üzrə birinci kurs tələbəsi idi. Boş vaxtlarında müntəzəm idman məşqlərinə gedir, üzgüçülüklə məşğul olurdu. Günü-gündən kişiləşirdi, sinəsi enlənmiş, əzələləri geyindiyi nazik köynəyinə iz salırdı. Təzəcə buraxdığı qısa saqqal və nazik bığ onu çox yaraşıqlı göstərirdi. Digər oğlanlar kimi, o da qızların diqqətini çəkməsi ilə gizlincə fəxr edirdi.**

***(Əvvəli ötən saylarımızda)***



Ruslan söhbətin məcrasını dəyişmək məqsədi ilə sual vermək təşəbbüsünü ələ aldi:

- Yaxşı, gəl sənin ixtisasından danışaq. Məsələn, rol nədir? Sosial rolla səhnədəki rolun nə fərqi? Bir roldan başqasına keçmək asandır, yoxsa çətin? Sən hansı rollarda oynamaq istərdin?

Fərid Ruslanın söhbətdən qaçmaq niyyətini anladı. Amma onun verdiyi suallara cavabları elə vermək istəyirdi ki, başladıqları söhbətin davamı kimi olsun.

- Əslində, Şekspir demiş, həyat teatrdır, insanlar aktyor. Yəni teatr rolu ilə sosial rol formaca eyni, amma mahiyyətinə görə fərqlidir. Məsələn, teatrda rolu sənə verirlər, həyatda rolu sən özün alırsan. Səhnə rolu müvəqqətidir, həyatdakı rol daimi... Səhnədə dəyişik çoxlu rol oynaya bilərsən. Həyatda yalnız bir rol oynamalısan. Səhnədə rol dəyişmək adi bir işdir. Həyatda rol dəyişmək bəzən insanın həyatı bahasına başa gəlir. Teatrda hər iki cinsin rolunu oynamaq təbiidir, amma həyatda əks cinsin rolunu oynamaq qeyri-təbiidir. Teatrda qadın rolu oynayan kişi aktyorları alqışlayırlar, onları mükafatlandırırlar, amma həyatda əks cinsin rolunu oynayanları ittiham edir, onları cəzalandırırlar...

Ruslan diqqətlə Fəridin dediklərinə qulaq asdı və sonda öz verdiyi sualdan peşman oldu. Çünki bayaqdan kəsmək istədiyi söhbətləri indi daha ciddi və elmi məcrada davam edirdi. Ruslan:

- Aydındır, bu gün sən psixologiyadan, mən də aktyorluq sənətindən çox şey öyrəndik. Daha gecdir, evə gedək.

Bir dəfə Fəridgildə vaxt keçirəndə Fərid Ruslana öz istedadını göstərmək üçün iki qadın rolunu onun üçün oynamaq istədiyini dedi:

- İmtahana hazırlaşıram. Mən bir qadın rolunda oynamalıyam. İki rol seçmişəm: Şekspin Dezdemonasını, Cabbarlının "Vəfalı Səriyyə"sini. İlk tamaşaçım sən olacaqsan, istəyirəm imtahan üçün oynayacağım rolu sən seçəsən...

O, Ruslanı əvvəlcə Otellonun yerinə qoydu. Otellonun qısqanclığı müqabilində ona məhəbbətini, sədaqətini sübut edirmiş kimi Ruslanın ayaqlarına yıxılıb onun əllərini öpməyə, ayaqlarından yapışıb ağlamağa başladı. Fərid elə ürəkdən ağlayır, yalvarırdı ki, Ruslan onun rola girdiyini bir anlığa unutdu. Ona elə gəldi ki, Fərid elə Ruslanı sevdiyini, ona sədaqətli olduğunu inandırmağa cəhd edir. Özü də bilmədən dedi:

- Qalx, Fərid, mən sənə inanıram. Mən də səni sevirəm.

Fərid gülə-gülə:

- Yox olmadı, sən Ruslan yox, indi Otellosan və məni boğmalısan. Tut boğazımdan məni boğ.

Ruslan pərt oldu. İfşa olunduğunu başa düşdü. Sonra da hirslə Fəridə:

- Mən artist deyiləm, əl çək - deyərək, kompüterin qabağına keçib, özünü məşğul kimi göstərməyə başladı.

Fərid ayağa qalxıb nüfuzedici nəzərlərlə Ruslanın gözlərinə onun qəlbinin dərinliklərinə baxırmış kimi baxdı:

- Görürsən, deməli, rolumu yaxşı oynadım. Sən bunun rol olduğunu belə unutdun.

Ruslan öz-özünə dedi:

- Yaxşı, mən rolu unutdum, onda dediyim sözlər nə idi?! Əgər bunun rola aidiyyəti yoxdursa, onda...

Ruslan pərtliklə:

- Lap məni çaşdırdın. Yaxşı rola girə bilirsənmiş... Məndən aktyor çıxmaz, boynuma alıram.

Fərid öz teatrını davam etdirməkdə israrlı idi. Bu dəfə Ruslan nökər Əbdül rolunda, Fərid Səriyyə rolunda idi. Uzaqdan qulağına gələn toy səslərinə dözə bilməyən Səriyyə - Fərid ağır xəstə yatdığı çarpayıdan yerə yıxılır, Ruslana - Əbdülə xitab edərək, nakam eşqi ilə bağlı fəryad edirdi. Ruslan yenə özünü unutdu, özünü saxlaya bilmədi. Gözləri yaşardı, sanki qarşısındakı hadisələr real həyatda onun canı qədər sevdiyi Fəridlə bağlı baş verirdi. Ona elə gəldi ki, Fərid onun - Ruslanın ona xəyanətindən əzab çəkir, Səriyyənin ölümünə günahkar odur. Ruslan aşağı əyilib, guya ölmüş Səriyyəni - Fəridi ayağa qaldırdı. Fəridin rəngi avazımışdı. Ağlamaqdan gözləri qızarmışdı. Yazıq-yazıq Ruslana baxdı:

- Dostum, mənə xəynət etmə, məni tərk etmə. Mən buna dözə bilmərəm.

Ruslan:

- Qurtar da bu gic-gic hərəkətlərini. Bayaqdan qadın roluna giribsən, hələ də çıxa bilmirsən. Elə bil sevgiliyik. Bu nə sözlərdir, danışırsan?!

Fərid yorğun-yorğun dilləndi:

- Deməli, rolumu yaxşı oynayıram ki, səni qıcıqlandırıram.

Ruslan başa düşmədi ki, Fərid hansı rolunu - hayatdakı, ya məşqdə oynadığı rolu nəzərdə tutur.

Artıq Ruslan münasibətlərinin başqa bir məcraya yönəldiyini hiss edirdi. Özlüyündə bundan çıxış yolunu özünün və Fəridin qız dostu tapmalarında görürdü. Məqsədini bildirmədən Fəridə dedi:

- Məncə, artıq vaxtdır. Hamının qız dostu var, gəl biz də özümüzə qız tapaq.

Fərid:

- Sən istiyirsən tap, mən istəmirəm. Mənim üçün üçüncü artıqdır. Sonra da zarafatla əlavə etdi:

- Mənim qəlbim bir sevgi üçün hesablanıb, orda iki sevgi yan- yana yerləşməz.

Ruslan öz qərarında qəti idi. İndi o, ətrafındakı qızlara diqqətlə baxmağa, xoşuna gələnlərə könülsüz də olsa da yaxınlıq etməyə cəhd edirdi. Hətta Fəridlə birgə olanda, o, istəməsə də, qoşa gəzən qızlar axtarıb arxalarınca düşürdülər.

Dərsləri eyni vaxtda qurtarmayanda qabaqcadan sözləşib Fəridlə Ruslan çox vaxt ayrı-ayrılıqda Bulvara gəlir və həmişəki görüş yerlərində birləşib, adamların arasına qarışırdılar. Bu dəfə də adəti üzrə Ruslan Fəridlə görüşüb, Bulvarda gəzmək üçün ondan qabaq görüş yerinə gəldi. Uzaqdan alaqaranlıqda həmişə oturduqları oturacaqda bir nəfərin oturduğunu gördü. Düşündü ki, yəqin Fəriddir, dərsləri tez qurtarıb, ona görə tez gəlib. Yanından keçən qızlara tamaşa edə-edə oturacağa yaxınlaşdı və oturana baxmadan:

- Salam. Çox gözlətmədim ki, səni? - Deyib əlini uzatdı.

- Mən sizi gözləmirəm.

Cavabını eşidəndə dönüb qarşısındakına baxdı. Bu, Fərid yox, gözəl bir qız idi. Şabalıdı saçları, iri mavi gözləri, qıvrım kiprikləri, al yanaqları, zövqlə boyanmış qalın dodaqları... Ruslan qarşısında həmişə xəyal etdiyi qızı gorürdü. Əslində, Ruslanın xəyalındakı qızın prototipi Fərid idi. O, çox istəyirdi ki, sevdiyi qız Fəridlə eyni cizgilərə, xarakterə, boya malik olsun. Həm də nədənsə onun Fəridə çox oxşamasını istəyirdi. İndi qarşısında dayanıb ona gülümsəyən qız elə bil xəyallarından çıxmışdı. Fəridlə bir alma kimi iki yerə bölünmüşdülər. Hətta səsi də Fəridin səsinə çox oxşayırdı.

Cavabını eşidəndə dönüb qarşısındakına baxdı. Bu, Fərid yox, gözəl bir qız idi. Şabalıdı saçları, iri mavi gözləri, qıvrım kiprikləri, al yanaqları, zövqlə boyanmış qalın dodaqları... Ruslan qarşısında həmişə xəyal etdiyi qızı gorürdü. Əslində, Ruslanın xəyalındakı qızın prototipi Fərid idi. O, çox istəyirdi ki, sevdiyi qız Fəridlə eyni cizgilərə, xarakterə, boya malik olsun. Həm də nədənsə onun Fəridə çox oxşamasını istəyirdi. İndi qarşısında dayanıb ona gülümsəyən qız elə bil xəyallarından çıxmışdı. Fəridlə bir alma kimi iki yerə bölünmüşdülər. Hətta səsi də Fəridin səsinə çox oxşayırdı...

Ruslan qızın gözlərinə baxanda o gözlərdə hiylə dolu, amma sanki tanış bir təbəssüm gördü. Yalnız gözlərinin rəngi Fəridin gözlərindən fərqli olaraq mavi idi. Əgər gözlərindəki fərqi görməsəydi, bu qızın Fərid olduğuna inanacaqdı. Ruslanın ürəyi atlandı. O, ildırım məhəbbətinə heç vaxt inanmamışdı, amma indi ilk baxışdan sevgi ilə üz-üzə idi. Qızı görməyi ilə ona vurulmagı bir olmuşdu. Elə bil, qız da ona vurulmuşdu. Ruslan həyatının bu fürsətini əldən ötürə bilməzdi.

- Adınızı bilmək olar?

Artıq oturduğu yerdən qalxmış qız:

- Əgər, bu vacibdirsə, adım Fəridədir. Deyə cavab verdi.

Ruslan bu təsadüfə bir daha sevindi. Dostu Fərid, sevgilisi Fəridə. Hələ zarafatla fərqləri bir "ə"-dən ibarətdir, - deyə öz-özünə düşündü.

Ruslan tanışlığı dərinləşdirməyə cəhd edərək, təşəbbüsünü davam etdirməyə başladı:

- Əgər, etiraz etmirsinizsə, birgə gəzə bilərik.

- Yox, etmirəm, Rəfiqəmi gözləyirəm. O, gələnə kimi gəzə bilərik.

- Hə, yaxşı, mən də dostumu gözləyirəm. O da gələr, onda dördlükdə gəzərik.

Fəridə utancaq-utancaq dilləndi:

- Artıq dördümüzün də əvəzindən hər şeyə sən qərar verməyə başladın...

Ruslan Fəridə ilə gəzməyə başladı. Bəxtlərindən nə Fəridənin rəfiqəsi, nə də Fərid gəlib çıxmadı. Ruslan bundan çox sevindi. Ən azı, qızla birlikdə xeyli vaxt keçirdi, bir-biri haqqında bəzi məlumatlar öyrənə bildilər. Fəridəni də, deyəsən, rəfiqəsinin gəlməməsi bir o qədər narahat etməmişdi. Hətta elə görünürdü ki, o, rəfiqəsinin gözləməsini yadından çıxarıb. Ruslan Fəridəyə onunla daimi dost olmaq istədiyini bildirdi:

- Olar, amma mənim iki şərtim var.

Ruslan hər bir şərtə hazır idi, təki Fəridə ona yox deməsin.

- Birincisi, aramızda bəlli bir məsafə qalacaq, yəni fiziki təmas olmayacaq. İkincisi, heç vaxt məni evimizə ötürməyəcəksən.

Fəridə hər iki şərtini ailəsi ilə əlaqələndirdi. Üç qardaşı var idi. Onlar Fəridənin kimlə gəzdiyini bilsəydilər, qan düşərdi. Fəridə həm də yaxşı tanımadığı və hara gedib çıxacağını bilmədiyi münasibətlərdə ifrat yaxınlığı düz hesab etmirdi:

- Hələ biz dostluğumuza başlayırıq, kim bilir hara qədər gedə bilcəyik.

Ruslan fərqinə varmadan razılaşdı. Ürəyində "bir müddətdən sonra şərt-mərt yaddan çıxacaq", -deyə düşündü.

Artıq xeyli vaxt keçmişdi, qaranlıq düşmüşdü. Fəridə evlərinə getmək vaxtı çatdığını deyəndə Ruslan "ötürüm səni" dedi. Fəridə:

- Birinci şərtimizə görə yox və heç vaxt, bunu ağlına gətirmə. Sonra Ruslanla əl verməden sağollaşıb, dayanacaqdakı avtobusa mindi. Həmin gündən Ruslan Fəridə ilə tez-tez görüşməyə başladı. İndi o, Fəridəni sevirdi. Bu sevgi ilə Fəridə olan dostluq məhəbbəti arasında heç bir fərq görmürdü. Bundan Ruslan həm sevinir, həm də təəccüblənirdi. Sevinirdi, ona görə ki, dostu ilə sevgilisi arasında seçim etmək məcburiyyətində qalmırdı. Təcüblənirdi, çünki qızla oğlana eyni hisslər bəsləməyinin səbəbini özü də anlaya bilmirdi. O, əvvəllər elə düşünürdü ki, qızlarla oğlanların hissləri oğlanlar arasındakı hisslərlə heç bir oxşarlığa malik ola bilməz. Amma indi bunun tam tərsinə olduğunu görürdü.

***(Ardı var)***

**AZAD**

# Qorio ata əsəri haqqında düşüncələr

İfrat dərəcədə sevgi öldürücüdür. Ziyadə gözəllik fəlakətə səbəb olur. Xüsusən də zərif cinsin minillərdir müharibələrə, qan-qadaya səbəb olan gözəlliyi insan cəmiyyətinin ən böyük fəlakətlərindəndir. Qadın gözəlliyinə hakim olmaq üçün insan oğlu ilk qətli törədib öz doğma qardaşını öldürdü. Qadın sevgisi müxtəlif formalarda təzahür etmişdir. Min illərdir ki, söz ustaları bu sevgini fərqli şəkildə qələmə alırlar. Sevgi gözəl, göz oxşayan, könül sevindirən, həm ülvi, ülviyyəti qədər də dağıdıcı və öldürücü bir hissdir. Sevgi təkcə qadın-kişi münasibətləri deyil, həmçinin ata-övlad, tanrı və insan arasındakı təmənnasız, saf, cismə və ruha hakim kəsilən qarşısıalınmaz duyğudur. İnsan hər şəkildə ifrat dərəcədə sevəndə məhv olur. Fanatik sevgi kimliyindən və münasibətlərin məğzindən asılı olmayaraq insanı qula çevirir.



Fərid MURADZADƏ




Fransız ədəbiyyatının ən nəhənglərindən biri olan Onore de Balzakın məşhur “Qorio ata “ əsəri qızlarını ifrat dərəcədə sevən və bu təmənnasız ata məhəbbətinin qarşılığında tüfeyli vəziyyətə düşərək kimsəsiz kimi ölən, zirvədən dərəyə yuvarlanmış eks fabrikant Qorio atanın faciəsindən bəhs edir. ”Qorio ata” fransız ədəbiyyatının ilk realist romanı hesab edilir. Əsəri oxuyanda insana elə gəlir ki, mövzu tam olaraq qızlarını tanrı kimi sevən atanın faciəsidir, lakin əslində roman üç xarakterin üzərində qurulub; qızlarını dəli kimi sevən, onların hiylələrini belə məsumiyyət, bədbəxtlik, maddi və mənəvi sıxıntı kimi qəbul edən (sonda mahiyyətini bilsə belə) Qorio ata, axtarışda olan cinayətkar Votren və əyalətdən gəlib nəhəng şəhərdə böyük ideyalar və ideallar naminə hüquq təhsili alan tələbə Ejen de Rastinyak.

Əslində Balzak bu üç insanın timsalında üç cəmiyyəti canlandırmışdır. Romanda təsvir olunan hadisələr Burbon restavrasiyası (1815-1830) dövrünə təsadüf edir. Qorio ata burjua cəmiyyətində(qızları qəbul etməsə də) sərvəti hesabına yer tutan fabrikant, Votren hamıya təhlükəli görünən qatı cinayətkardır. Votren güclü, sözübütöv, qolugüclü, istəkləri naminə hər cür qətl törətməyə malik və bəlli bir cəmiyyətdə sevilən, sözünü deyən birisidir. Katorqa sürgünündən xilas olan Votren on minlərlə katorqaçının qəhrəmanı, onların ümid yeridir.O Amerikaya getmək və orada iş qurmaq niyyətindədir. Votrenin öz qanunları var. O cəmiyyətdə əxlaq kodeksinə inanmır. Bəzən olduqca sərt, bəzən də həlim birisinə çevrilir.

Votren Ejen de Rastinyakın mademuazel Tayferin sevgilisi olmasına tərəfdardır, çünki bu qatı cinayətkar öz maraqları naminə hər iki gəncdən istifadə etməyi düşünür. Çirkin əməllərin icrası üçün gənc tələbə-Rastinyak ideal namizəddir. Planln ilk mərhələsi üçün Votren Viktorina Tayferi ”xilas etməkdən” ötəri qızın ata varidatına sahib yeganə varis qardaşının ölümünə səbəb olur, lakin Rastinyak onun təkliflərini qəbul etmir və mademuazel Tayferlə hərhansısa bir macəra yaşamır.

Zəngin həyat təcrübəsinə malik, həyatın min bir sınağından keçmiş, ölüm, xəyanət, səfalət, həbsxana və sürgün həyatı yaşamış Votren yasadığı ətrafda kimsəyə zərər vurmasa da nəfsə yenilən digər iki pansionerin-Mişono və Puarenin tamahkarlığına qurban gedir.

Romanda üçüncü əsas obraz Rastinyakdır. Əyaləti təmsil edən gələcəyi ilə bağlı yüksək amallar və ülvi xəyallar quran bu gəncin obrazı məhz elə o dövrkü fransız cəmiyyətindən götürülmüşdür. Kübar cəmiyyətə valeh olan, bu cəmiyyətə qatılmaq istəyən, özünün xilasını məhz orada görən gənc tələbə az sonra gördüklərindən dəhşətə gəlir. Kənardan mükəmməl və əlçatmaz görünün kübar cəmiyyəti əslində iyrəncliklərlə və intriqalarla dolu amansız bir ictimai -siyasi cəmiyyətdir və Balzak dövrün ictimai-siyasi vəziyyətini, sinfi ziddiyyətləri seçdiyi personajlar üzərindən mükəmməl bir ustalıqla təsvir etmişdir. Balzak həmçinin oxucunu yüksək bədii təsvirlər vasitəsilə Parisə aparır. Ömrü boyu Parisdə olmayan diqqətcil oxucunu şəhərlə tanış edir, hətta arabir oxucunu zəngin və səfil Parisin izdihamında, ziddiyyətində azdırır, oxucunu dolandıra-dolandıra səyahət etdirir. Qorio ata səfalətdən cah-cəlala yüksəlmiş iti ağıla malik birisidir. Adi, səfil bir fəhlədən zəngin fabrikanta kimi yüksəlmiş bu adamın yeganə zəif nöqtəsi qızlarıdır. Onları az qala tanrı kimi sevən Qoria ata məhz elə bu dəhşətli sevginin qurbanı olur. Qoria ata girdabdan çıxıb aydınlaşmağa çalışır. Zəhməti və zəkası müqabilində aristokrat cəmiyyətdə yüksək mövqe tutan Qorio ata övladlarına hədsiz məhəbbəti ucbatından əslində girdaba düşür. Sentimentallıq onu səfilliyə düçar edir. Qorio ata ülvi bir istəklə qızlarını sevsə də onun bu fədakarlığı və ata məhəbbəti pulun, maddi sərvətlərin və ehtirasların vəhdət tapdığı ülviyyətə, saf və səmimi duyğulara yer verilməyən kübar cəmiyyətdə məhv olur. Qorio ata ölmür konkret olaraq dəhşətli və əzablı şəkildə məhv olur. Son qəpiyinə qədər qızlarına xərcləyən bu adamı əslində qızları , onların nadan cəmiyyəti öldürür.Qorio ata var-dövlət sahibi olsa da əslində aristokrat cəmiyyətdə qızları tərəfdən də qəbul olunmur, çünki eks fabrikant həm də eks fəhlədir. Sərvət əldə etsə də o kübar sayılmırg Qorio ata təkcə fabrikant və ata deyil, o əslində qaba bir bədəndə saf, məsum duyğuların simvoludur, lakin cəmiyyət bunlara dəyər vermir. Və ən acınacaqlısı da budur ki, Qorio heç özünü qorumur, o hər şeyi axına buraxır. Martin Lüter Kingin təbirincə desək, ”İnsan doğru olanı müdafiə etməkdən imtina edəndə ölür” və Qorio ata duyğularına, övlad məhəbbətinə yenilərək həqiqəti müdafiə etmir, hətta ağlı başından çıxanda belə qızlarına haqq qazandırır. Qızları Qorionun boynuna keçirilmiş ağır zəncirlərdir. O zəncirlərdən xilas yolu yalnız ölümdür, çünki zəncirlərin kəsişmə nöqtəsinə vurulan qıfılın açarı naməlum əldə yaxud da zor keçirmək , söz keçirmək mümkün olmayan ata qəlbindədir. O qəlbin sahibi Qorio olsa da şəxsiyyət olaraq o öz kor qəlbinə söz keçirə bilmir, çünki o əks hərəkətə yol verəndə zəncirlər onu “boğmağa “ başlayır. Zəngin qoca fabrikant zəncirlərə tabe köpək kimidir.

> Votren Ejen de Rastinyakın mademuazel Tayferin sevgilisi olmasına tərəfdardır, çünki bu qatı cinayətkar öz maraqları naminə hər iki gəncdən istifadə etməyi düşünür. Çirkin əməllərin icrası üçün gənc tələbə-Rastinyak ideal namizəddir. Planln ilk mərhələsi üçün Votren Viktorina Tayferi "xilas etməkdən" ötəri qızın ata varidatına sahib yeganə varis qardaşının ölümünə səbəb olur, lakin Rastinyak onun təkliflərini qəbul etmir və mademuazel Tayferlə hərhansısa bir macəra yaşamır...

Balzak Paris cəmiyyətindəki qadın şıltaqlıqlarını, qadın ehtirasını, intriqaları və intiqamı ustalıqla təsvir etmişdir. Yazıçı romanda əslində dövrün ictimai-siyasi vəziyyətindən məişətinə, müxtəlif zümrədən olan insanların hərəkət, düşüncə və fikirlərinə qədər hər şeyi qələmə almışdır. Romanda həmçinin məhəbbət və sərvət mövzusu da əsas kimi götürülmüşdür. Təmənnasız övladlarını allah sevgisi qədər ülvi bir istəklə sevən Qorio, hələ də vicdan hissini itirməyən, ailəsi tərəfdən təhdid görən, Ejen de Rastinyakı səmimi sevən lakin birləşmələri əngəlli olan Delfina, məşuqu tərəfdən aldadılan vikontessa madam de Bosean, məşuqun əlində oyuncağa çevrilən, külli miqdarda borc alta inləyən, bütün ləyaqətini itirən, atasının sərvətini xüsusilə zəli kimi soran Anastazi de Restro, kiçik bir qonorar məbləğində Votreni satan Mişono və Puare, varlı qraf, bankir Nusengen və s.o zamankı Paris cəmiyyətinin özündə əks etdirdiyi obrazlardır. “Qorio ata” istər dil və axıcılıq, istər mövzu, istərsə də sənətkarlıq baxımından mükəmməl bir əsərdir.